RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 176 (9055) CÜMƏ, 19 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycanla Monqolustanın ikitərəfli formatda tam qarşılıqlı anlaşması var



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Monqolustanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qombosuren Munxbayarın etimadnaməsini qəbul edib.

→ 2

## Yeni Zelandiya ilə siyasi sahədə yaxşı dialoq mövcuddur



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Zoe Daun Kolson-Sinklerin etimadnaməsini qəbul edib.

→ 2

## Çad Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çad Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adum Danqay Nokur Qetin etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycanda sənətə, sənətkara yüksək hörmət və ehtiram var

### Ulu Öndərin ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir



Ölkəsini inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq həm də dövlətin böyük sənətkarlarına göstərilən diqqətdən, qayğıdan və ehtiramdan qaynaqlanır.

İstedadı və zəhməti ilə misilsiz işlər görənlər, yaradıcılığı ilə mənsub olduğu xalqının, eləcə də dünya mədəniyyətini, incəsənətini zənginləşdirənlərin ən böyük mükafatları unudulmazlıqlarıdır. Əbədiyyət ünvanında yer tutan qüdrətli sənətkarlar ölkəsinin, xalqının qüruruna çevrilirlər.

**Heydər Əliyevin xalqımızın zəkasını, elmini, mədəniyyətini dünyaya nümayiş etdirənlərə qayğısı**

Azərbaycan dövləti milli-mənəvi dəyərlər üzərində qurulub. Ölkəmizdə sənətə və sənətkara yüksək hörmət və ehtiram ənənəsi mövcuddur. Ümummilli Lider Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərdi. Heydər Əliyevin hakimiyyətinin istər birinci, istərsə də ikinci dövrü Azərbaycan mədəniyyətinin tərəqqisi ilə yadda qaldı.

→ 6

## Cənubi Afrika Respublikası Azərbaycana regionda strateji tərəfdaş kimi münasibət göstərir



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Dipuo Berta Letsatsi-Dubanın etimadnaməsini qəbul edib.

→ 2

## «Azərbaycan böyük təcrübəyə və potensiala malik olan ölkədir»



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Efiopiya Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adem Muhammed Mahmudun etimadnaməsini qəbul edib.

→ 2

## Dövlət ümumtəhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət ümumtəhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) səriştə və nəticə əsaslı diferensiallaşdırılmış və əmək bazarında rəqabətqabiliyyətli əməkhaqqı sisteminin yaradılması məqsədilə **qərara alıram:**

1. 2022-ci il sentyabrın 1-dən dövlət ümumtəhsil müəssisələrinin aşağıdakı rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) sertifikatlaşdırmadan keçən təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavə müəyyən edilsin:

1.1. direktor və direktor müavinlərinin (təhsilalanların sayına görə);

1.2. təhsilverənlərin (sertifikatlaşdırmanın nəticəsinə görə).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulan əlavələrin məbləğlərini 2022-ci il sentyabrın 1-dək təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*

## İqtisadi müstəqilliyin aynası

### Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda yalnız öz gücünə həyata keçirdiyi genişmiqyaslı yenidənqurma işləri dövlətin qüdrətinin göstəricisidir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları tikinti-quruculuq meydanına çevrilib. İşğaldan azad olunan torpaqlarımızda yol, enerji infrastrukturu yenidən qurulur, elektrik və su xətləri çəkilir, müasir yaşayış kompleksləri yaradılır.

Lakin bir faktı xüsusi vurğulamalıyıq ki, bütün bu işləri Azərbaycan heç kimdən yardım almadan və yalnız öz gücünə həyata keçirir. Heç bir beynəlxalq təşkilat və fond bu işdə Azərbaycana yardım etmir.

Bunu Prezident İlham Əliyev də dəfələrlə dünyanın aparıcı siyasi və iqtisadi təşkilatlarının rəhbərləri, nümayəndələri ilə görüşdə səsləndirib.

Əlbəttə ki, bütün bunlar ilk növbədə Azərbaycanın iqtisadi müstəqilliyinin real göstəricisidir.

→ 6

## Vətən müharibəsi veteranı islamiadanın qalibi oldu

"Öncə Azərbaycan xalqını təbrik edirəm. Bu, tək mənim yox, bütün Azərbaycan xalqının qələbəsidir. Bu yarışa hazırlaşanda özümə inanırdım ki, çempion olacağam. Müəllimlərim mənə o motivasiyanı vermişdi ki, sən buna qadirsən. Çox güclü təlim-məşq toplanışlarından keçmişdik. Müəllimlər bizim üzərimizdə çox işləmişdilər. Şəxsi məşqçilərim Eduard Məmmədova və Çingiz Eyvazova çox təşəkkür edirəm. Üzərimdə kimin haqqı varsa, hamısı halal etsin".

→ 10



# Azərbaycanla Monqolustanın ikitərəfli formatda tam qarşılıqlı anlaşması var



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir Qombosuren Munxbayar etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Monqolustan Prezidenti Uxnaaqiyn Xürelsüxün salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Monqolustan Prezidentinə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərə toxunaraq, siyasi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyəsindən məmnunluğunu bildirdi, beynəlxalq təşkilatlarda fəal əməkdaşlığın həyata keçirildiyini dedi, ikitərəfli formatda tam qarşılıqlı anlaşmanın mövcud olduğunu vurğuladı. Bu baxımdan Prezident İlham Əliyev iqtisadi əlaqələrin genişləndirilməsi üçün ticarətin səviyyəsinin artırılmasının, biznes dairələri arasında təmasların genişləndirilməsinin zəruriliyini qeyd etdi və investisiya layihələrinə baxılmasının da mümkünlüyünü bildirdi. Dövlətimizin başçısı eyni zamanda Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizi imkanları nəzərə alınaraq nəqliyyat sahəsində, bundan başqa humanitar sahədə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev səfirin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.

Qombosuren Munxbayar son illərdə, xüsusilə 2018-ci ildə Monqolustan Prezidentinin Azərbaycana səfərindən sonra ikitərəfli əlaqələrin fəal şəkildə inkişaf etdirildiyini dedi. Səfir bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının otuz illiyinin qeyd olunduğunu vurğulayaraq, Monqolustan Prezidentinin Azərbaycan Prezidentinə onun üçün münasib vaxtda ölkəsinə səfərə dəvətini çatdırdı.

Prezident İlham Əliyev dəvəti minnətdarlıqla qəbul etdi.

Görüşdə təhsil, turizm, investisiya sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

# Yeni Zelandiya ilə siyasi sahədə yaxşı dialoq mövcuddur



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir Zoe Daun Kolson-Sinkler etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlət başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın fəallaşdırılması üçün mövcud imkanlardan istifadə etməyin zəruriliyini vurğuladı, əlaqələrin genişlənməsinin qarşılıqlı maraqlarımıza cavab verdiyini dedi. Azərbaycanla Yeni Zelandiyanın bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, siyasi sahədə yaxşı dialoqun mövcud olduğunu bildirən dövlətimizin başçısı eyni zamanda iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev bu baxımdan ölkələrimizin imkanları barədə məlumatların çatdırılmasının, biznes dairələri arasında təmasların qurulmasının zəruri olduğunu bildirdi.

Xanım Zoe Daun Kolson-Sinkler ilk dəfə Bakıya səfər etdiyini bildirərək dedi ki, çox gözəl ölkə olan Azərbaycana gəlişindən məmnunluq hissi duyur. Səfir öz növbəsində əlaqələrin genişləndirilməsi üçün mövcud potensialın reallaşdırılmasının vacibliyini bildirdi. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu vurğulayan səfir beynəlxalq müstəvidə Azərbaycanın və Yeni Zelandiyanın əlaqələrin genişləndirilməsi işinə böyük önəm nümayiş etdirdiklərini dedi.

# Cənubi Afrika Respublikası Azərbaycana regionda strateji tərəfdaş kimi münasibət göstərir



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir Dipuo Berta Letsatsi-Duba etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ölkələrimiz arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev siyasət, iqtisadiyyat, ticarət, investisiya sahələrində əməkdaşlığın fəallaşdırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev eyni zamanda vurğuladı ki, siyasi sahədə təmasların çox yaxşı səviyyədə olmasına baxmayaraq, iqtisadi-ticari göstəricilər aşağı həddədir. Dövlətimizin başçısı bu baxımdan iqtisadi əlaqələrin genişləndirilməsi üçün mövcud potensialdan istifadə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycanın Afrika qitəsi ölkələri ilə münasibətlərinin daha da genişləndiyini deyən Prezident İlham Əliyev Qoşulmama Hərəkatındakı əməkdaşlığımızı vurğuladı. Ölkəmizin bu təşkilat çərçivəsində həmrəyliyin gücləndirilməsi istiqamətində çox ciddi səylər göstərdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycanda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının və Qoşulmama Hərəkatı gənclər sammitinin keçirilməsini bunun yaxşı nümunəsi kimi dəyərləndirdi.

Xanım Dipuo Berta Letsatsi-Duba ölkəsinin Azərbaycana regionda və ümumilikdə strateji tərəfdaş kimi münasibət göstərdiyini qeyd edərək, Cənubi Afrika Respublikasının əməkdaşlığımızın daha yüksək səviyyəyə qaldırılmasında maraqlı olduğunu vurğuladı. Səfir münasibətlərimizin daha da genişlənəcəyinə ümidvar olduğunu ifadə etdi.

Söhbət zamanı turizm sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, iki ölkənin biznes dairələri arasında münasibətlərin yaradılmasının və iqtisadi-ticari əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd olundu.

# Çad Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir Adum Danqay Nokur Qet etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında da sıx əməkdaşlıq həyata keçirildiyini bildirdi və ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərdiyini dedi. Dövlətimizin başçısı bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin uzadılmasının Çad tərəfindən dəstəklənməsini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda Çadın Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini və Qarabağın işğaldan azad edilməsini alqışlamasını yüksək qiymətləndirdi. Dövlətimizin başçısı işğal dövründə Ermənistan tərəfindən torpaqlarımızda maddi-mədəniyyət abidələrimizin, İslam dininə aid mədəni irsimizin, 65 məscidimizin yerlə-yeksan olunduğunu qeyd etdi.

Azərbaycan Prezidenti siyasi əlaqələrimizin yaxşı səviyyəsi nəzərə alınaraq, iqtisadi-ticari əməkdaşlığın da müsbət nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Çadın nümayəndəsi - İslam Əməkdaşlıq Təşkilatının baş katibi Hissein Brahim Tahanın Azərbaycana səfərini, eyni zamanda işğaldan azad edilmiş Şuşada olmasını və bu yaxınlarda onunla Konyada İslam Həmrəyliyi Oyunları çərçivəsində görüşünü məmnunluqla xatırlatdı.

Adum Danqay Nokur Qet səfir kimi fəaliyyətində əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. Səfir dedi: "Siz İslam ümmətində öz müdrik rəhbərliyinizlə seçilən bir şəxssiniz və həmçinin bu ümmətə aid olan bütün ölkələr, qardaşlıq telləri ilə bir-birinə bağlı olan dövlətlər arasında əməkdaşlığın genişləndirilməsində, işbirliyinin daha da möhkəm bünövrə əsasında qurulmasında öz yanaşmanızla seçilən bir insansınız".

Səfir Adum Danqay Nokur Qet Azərbaycanın Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Afrika ölkələrində həyata keçirdiyi humanitar xarakterli layihələrin böyük önəm daşıdığını vurğuladı və bunu yüksək qiymətləndirdi. Diplomat bu təşkilatların üzv ölkələrindən olan tələbələrin Azərbaycanda təhsil almaları üçün ölkəmiz tərəfindən qrantların ayrılmasını xüsusi vurğuladı.

# "Azərbaycan böyük təcrübəyə və potensiala malik olan ölkədir"

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir Adem Muhammed Mahmud etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Münasibətlərimizin yaxşı tarixə malik olduğunu bildirən dövlətimizin başçısı hazırda ikitərəfli səviyyədə müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd etdi, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstəyin bundan sonra da davam edəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün də mövcud imkanlardan istifadə edilməsinin önəmini vurğuladı.

Səfir Adem Muhammed Mahmud Efiopiya Prezidenti xanım Sahle-Vork Zevdenin və Baş nazir Abiy Əhməd Əlinin salamlarını dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Efiopiya Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Səfir qeyd etdi ki, gözəl ölkə olan Azərbaycanda etimadnaməsini təqdim etməkdən böyük şərəf hissi duyur. Adem Muhammed Mahmud da öz növbəsində əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən investisiya və ticarət sahələrində genişləndirilməsi üçün ölkələrimizin malik olduğu potensialdan istifadə edilməsinin zəruriliyini vurğuladı. Səfir Azərbaycanın böyük təcrübəyə və potensiala malik olduğunu deyərək, münasibətlərimizin inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Görüşdə dövlətimizin başçısının təşəbbüsü ilə Azərbaycanın COVID-19 pandemiyası zamanı Qoşulmama Hərəkatına üzv, xüsusən də Afrikadan olan ölkələrə humanitar və maliyyə yardımları göstərməsi xüsusi olaraq vurğulandı.

# "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615; 2015, № 11, maddə 1280; 2017, № 5, maddə 690; 2018, № 10, maddə 1965; 2019, № 3, maddə 378, № 7, maddə 1183; 2021, № 6 (I kitab), maddə 543) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1. ikinci və beşinci abzaslarda ismin müvafiq hallarında "uçotu" sözü ismin müvafiq hallarında "qeydiyyatı" sözü ilə əvəz edilsin;

1.2. yeddinci abzasda "müəssisəsi" sözü "arxiv xidməti təşkilatı" sözləri ilə əvəz edilsin;

1.3. səkkizinci abzasa ikinci halda "dövlət" sözündən sonra "və qeyri-dövlət" sözləri əlavə edilsin;

1.4. on ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on üçüncü - on altıncı abzaslar əlavə edilsin:

"dövlət arxiv xidməti təşkilatı - Azərbaycan Respublikasının dövlət arxivləri, dövlət arxivinin filialları və sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivləri;

sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivi - müvafiq inzibati ərazi üzrə dövlət və qeyri-dövlət təşkilatlarının fəaliyyəti nəticəsində yaranan Milli arxiv fonduna aid sənədlərin komplektləşdirilməsini, istifadəsini və daimi mühafizə olunmalı hissəsinin müvəqqəti saxlanılmasını təmin edən dövlət arxiv xidməti təşkilatı;

idarə arxivi - bir idarənin, yaxud onun tərkibində olan təşkilatlar qrupunun fəaliyyəti nəticəsində yaranan arxiv sənədlərinin məcmusunun komplektləşdirilməsini, qeydiyyatını, mühafizəsini və istifadəsini həyata keçirən struktur bölmə və ya qurum;

işçi heyət üzrə sənədlər - işəgötürənlə işçi arasında əmək münasibətlərinin əks olunduğu sənədlər məcmusu.".

2. 3-cü maddənin dördüncü, altıncı və doqquzuncu abzaslarında və III fəslin adında "uçotu" sözü "qeydiyyatı" sözü ilə əvəz edilsin.

3. 5-ci maddənin birinci hissəsinin səkkizinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda doqquzuncu - on birinci abzaslar əlavə edilsin:

"elektron sənədlər;

sənədin əslini əvəz edən nüsxələr;

xarici dövlətlərdə olan Azərbaycanla bağlı arxiv sənədlərinin surətləri.".

4. 7-ci maddə üzrə:

4.1. ikinci - dördüncü hissələr müvafiq olaraq üçüncü - beşinci hissələr hesab olunsun və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət orqanlarının və qurumlarının, bələdiyyə orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyəti nəticəsində yaranan arxiv sənədlərinin saxlanılma müddəti göstərilməklə nümunəvi siyahısını və həmin müddətlərin tətbiqi qaydasını təsdiq edir. Dövlət orqanlarının və qurumlarının, bələdiyyə orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyəti nəticəsində yaranan arxiv sənədləri nümunəvi siyahı əsasında və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla onların özləri tərəfindən təsdiq edilmiş sahə siyahısına uyğun olaraq müəyyən edilir. Elektron daşıyıcıda olan sənədlər müvafiq sənədlərin kağız daşıyıcıları üçün müəyyən edilmiş müddətdə saxlanılır.";

4.2. beşinci hissədə "fondu sənədlərinin" sözləri "fondunun formalaşdırılması mənbələrində yaranan sənədlərin" sözləri ilə və "dayandırılır" sözü "qadağandır" sözü ilə əvəz edilsin.

5. 9-cu maddə üzrə:

5.1. dördüncü - altıncı hissələr müvafiq olaraq altıncı - səkkizinci hissələr hesab olunsun və aşağıdakı məzmunda dördüncü və beşinci hissələr əlavə edilsin:

"Dövlət və yaxud bələdiyyə mülkiyyətində olan müəssisə və ya təşkilat özəlləşdirildikdə, onların arxiv fondu dövlət mülkiyyətində qalır. Fiziki şəxs vəfat etdikdə, onun arxiv sənədləri üzərində mülkiyyət hüququ onun vərəsəsinə, hüquqi şəxs yenidən təşkil edildikdə isə onun arxiv sənədləri üzərində mülkiyyət hüququ onun hüquqi varisinə keçir. Hüquqi şəxs ləğv edildikdə və ya vəfat etmiş fiziki şəxsin vərəsəsi olmadığı halda, onların arxiv sənədləri üzərində mülkiyyət hüququ dövlətə keçir.

Fiziki və ya hüquqi şəxsin mülkiyyətində olan arxiv sənədləri üzərində mülkiyyət hüququ digər şəxslərə keçdikdə, bu barədə məlumat fiziki şəxsin vərəsəsi tərəfindən vəfat etmiş fiziki şəxsin yaşayış yeri üzrə, hüquqi şəxsin hüquqi varisi tərəfindən isə yenidən təşkil edilmiş hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına mülkiyyət hüququnu əldə etdiyi andan 30 (otuz) gün müddətində verilməlidir. Hüquqi şəxs ləğv edildikdə, onun ləğvi ilə bağlı yaradılmış ləğvetmə komissiyası özünün və həmin hüquqi şəxsin arxiv sənədlərinin ləğv edilmiş hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına mühafizəyə verilməsini təmin etməli və təhvil verildiyinə dair həmin dövlət arxiv xidməti təşkilatından müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formaya uyğun arayış almalıdır. Dövlət arxiv xidməti təşkilatı həmin arayışı arxiv sənədlərinin təhvil verildiyi gün verməlidir.";

5.2. üçüncü və altıncı hissələrdə "sənəd fondları" sözləri "arxiv sənədləri" sözləri ilə əvəz edilsin.

6. 10-cu maddə üzrə:

6.1. birinci hissədə "ikinci" sözü "üçüncü" sözü ilə, "idarə, müəssisə və təşkilatlarda yaradılan arxivlərdə" sözləri "və qeyri-dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan idarə arxivlərində" sözləri ilə əvəz edilsin;

6.2. ikinci hissənin yeddinci abzasından "və şəxsi heyət barədə sənədlər" sözləri çıxarılsın, həmin abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda səkkizinci - onuncu abzaslar əlavə edilsin:

"2006-cı il yanvarın 1-dək kargüzarlıqda icrası başa çatmış işçi heyət üzrə sənədlər üçün - 75 il;

2006-cı il yanvarın 1-dən sonra kargüzarlıqda yaranan dövlət orqanlarının, iri dövlət şirkətlərinin rəhbərlərinin, dövlət, elm və mədəniyyət xadimlərinin, dövlət təltifləri və elmi dərəcələrə malik şəxslərin işçi heyət üzrə sənədləri üçün - 75 il; digər işçi heyət üzrə sənədlər üçün - 35 il.";

6.3. üçüncü hissəyə "hesablanır" sözündən sonra "və həmin müddətlər başa çatdıqdan sonra arxiv fondu sənədləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun daimi dövlət mühafizəsinə təhvil verilməlidir" sözləri əlavə edilsin;

6.4. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Dövlət orqanı (qurumu) ləğv edildikdə və onun hüquqi varisi olmadıqda, həmin dövlət orqanının (qurumunun) arxiv fondları bu Qanunla müəyyən edilmiş qaydada dövlət arxiv fonduna təhvil verilir.";

6.5. beşinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin təşkilatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formaya uyğun olaraq, arxiv fondlarının tərkibi və həcmi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hər il üçün növbəti ilin yanvar ayının 25-dək məlumat verməlidirlər.";

6.6. altıncı hissədə "və onların filiallarının, rayon və şəhər" sözləri ", dövlət arxivinin filiallarının və sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət" sözləri ilə əvəz edilsin;

6.7. yeddinci hissədə "əməl" sözü "uyğun olaraq arxiv fondlarının mühafizəsini təmin" sözləri ilə əvəz edilsin.

7. 11-ci maddənin mətni birinci hissə hesab olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Milli arxiv fondunun qeydiyyat sistemi arxiv fondlarının və sənəd kolleksiyalarının kəmiyyət və keyfiyyət göstəricilərinin məcmusudur. Qeydiyyat sisteminə arxiv fondlarının siyahısı (reyestri), kataloqu, qeydiyyat sənədləri, məlumat topluları və sənəd külliyyatları daxildir.".

8. 12-ci maddənin ikinci hissəsində "sənəd fondları" sözləri "arxiv sənədləri" sözləri ilə əvəz edilsin.

9. 13-cü maddənin mətni birinci hissə hesab olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Milli arxiv fondu sənədlərinin komplektləşdirilməsi, dövlət qeydiyyatı, mühafizəsi və istifadəsi sahəsində bu Qanunun tələblərinin icrasına nəzarət edir, informasiya və kommunikasiya texnologiyalarını tətbiq etməklə arxiv işinin modernləşdirilməsini, arxiv sənədlərinin rəqəmsallaşdırılmasını və vahid elektron arxiv məlumat sisteminin yaradılmasını təmin edir.".

10. 15-ci maddə üzrə:

10.1. maddənin mətni birinci hissə hesab edilsin və həmin hissədən "arxiv və kargüzarlığın vahid dövlət sistemini birləşdirən" sözləri çıxarılsın;

10.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Dövlət arxiv xidmətinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), Azərbaycan Respublikasının dövlət arxivləri, dövlət arxivinin filialları və sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivləri daxildir. Dövlət arxiv xidməti təşkilatları Milli arxiv fonduna aid sənədlərin komplektləşdirilməsini, dövlət qeydiyyatını, mühafizəsini və istifadəsini həyata keçirirlər, habelə bu Qanuna uyğun olaraq hüquqi və fiziki şəxslərə ödənişli arxiv xidmətləri göstərirlər. Ödənişli arxiv xidmətlərinin siyahısını və onların göstərilməsinə görə xidmət haqlarının məbləğini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.".

11. 16-cı maddə üzrə:

11.1. birinci hissə üzrə:

11.1.1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə Milli arxiv fondu sənədlərindən istifadə edilməsinə məhdudiyyət yalnız dövlət, peşə, kommersiya, şəxsi və ailə sirrinin qorunması məqsədilə və ya şəxsi mülkiyyətdə olan arxiv sənədlərinin mülkiyyətçisinin qərarına əsasən tətbiq edilir.";

11.1.2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericilik aktlarının tələblərinə riayət etməklə, Azərbaycan Respublikasının dövlət arxiv fondunun sənədlərindən beynəlxalq müqavilələr əsasında istifadə edə bilərlər.";

11.2. altıncı hissə aşağıdakı redaksiyada verilsin:

"Milli arxiv fondu sənədlərindən istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.".

12. 17-ci maddə üzrə:

12.1. adına "maliyyələşdirilməsi" sözündən sonra "və madditexniki təminatı" sözləri əlavə edilsin;

12.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Dövlət arxiv xidməti təşkilatları bu Qanunun 17-ci maddəsinin birinci hissəsində göstərilən mənbələrlə yanaşı, bu Qanuna uyğun olaraq göstərilən ödənişli arxiv xidmətlərindən daxil olan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.".

13. 18-ci maddə üzrə:

13.1. birinci hissədə "arxivləri" sözü "arxiv xidməti" sözləri ilə əvəz edilsin və həmin hissənin ikinci cümləsi çıxarılsın;

13.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən daxil olan vəsaitin 50 faizi və ödənişli arxiv xidmətlərinin göstərilməsi ilə əlaqədar toplanılmış xidmət haqları dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsini gücləndirmək və dövlət arxiv xidmətinin maddi-texniki bazasını yaxşılaşdırmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

# "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 9-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsində, 10-cu maddəsinin üçüncü hissəsində və beşinci hissəsinin ikinci cümləsində (hər iki halda), 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin ikinci hissəsinin birinci və üçüncü cümlələrində, 16-cı maddəsinin altıncı hissəsində, 18-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində və beşinci hissəsinin ikinci cümləsində (birinci halda), 15-ci maddəsinin ikinci hissəsinin üçüncü cümləsində, 16-cı maddəsinin altıncı hissəsində, 18-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 7-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 9-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsində, 10-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsində (ikinci halda), 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 18-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.2. həmin Qanunun 15-ci maddəsinin ikinci hissəsinin üçüncü cümləsinə uyğun olaraq ödənişli arxiv xidmətlərinin siyahısını və onların göstərilməsinə görə xidmət haqlarının məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.3. həmin Qanunun 18-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsinə uyğun olaraq dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin madditexniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.4. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsinə uyğun olaraq arxiv fondlarının tərkibi və həcmi barədə məlumatların verilməsi formasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.5. həmin Qanunun 16-cı maddəsinin altıncı hissəsinə uyğun olaraq Milli arxiv fondu sənədlərindən istifadə qaydasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430; 2006, № 8, maddə 435; 2013, № 8, maddə 899; 2016, № 3, maddə 464) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 9-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsində, 10-cu maddəsinin üçüncü hissəsində, beşinci hissəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində (hər iki halda), 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin ikinci hissəsinin birinci və üçüncü cümlələrində, 16-cı maddəsinin altıncı hissəsində, 18-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 4-cü maddəsinin dördüncü hissəsində, 7-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində (ikinci halda) və yeddinci hissəsində, 14-cü maddəsinin birinci hissəsinin ikinci cümləsində və 22-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində və beşinci hissəsinin ikinci cümləsində (birinci halda), 15-ci maddəsinin ikinci hissəsinin üçüncü cümləsində, 16-cı maddəsinin altıncı hissəsində, 18-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 16-cı maddəsinin üçüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya həyata keçirir;

2.5. həmin Qanunun 6-cı maddəsinin dördüncü hissəsində, 7-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 11-ci maddəsinin birinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və 14-cü maddəsinin birinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi həyata keçirir;

2.6. həmin Qanunun 13-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.7. həmin Qanunun 7-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 9-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsində, 10-cu maddəsinin beşinci hissəsinin ikinci cümləsində (ikinci halda), 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 18-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi nəzərdə tutulur;

2.8. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində "elmi təşkilat" dedikdə Azərbaycan Milli Elmlər Akademiyası nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 485; 2005, № 10, maddə 910; 2006, № 9, maddə 741; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü bənddə "və digər yerli dövlət arxivləri" sözləri ", dövlət arxivinin filialları və sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivləri" sözləri ilə əvəz edilsin;

1.2. 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4. İdarənin saxlanılması və fəaliyyəti ilə bağlı xərclər Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.";

1.3. 7.3-cü, 7.8-ci və 8.4-cü bəndlərdə ismin müvafiq hallarında "uçotu" sözü ismin müvafiq hallarında "qeydiyyatı" sözü ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 7.9-2-ci bənd əlavə edilsin:

"7.9-2. arxiv işi sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;";

1.5. 8.2-ci bənddə "uçotunu" sözü "qeydiyyatını" sözü ilə, "mühafizəsi və istifadəsi üzərində" sözləri "komplektləşdirilməsi, dövlət qeydiyyatı, mühafizəsi və istifadəsi sahəsində "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına" sözləri ilə əvəz edilsin;

1.6. 8.8-ci bənddə "arxiv işində elektron avtomatik informasiya sisteminin tətbiqi və istifadəsi üzrə texniki təchizat siyasətini müəyyən edir, informasiya şəbəkəsi və bazası yaradılması işini təşkil edir" sözləri "informasiya və kommunikasiya texnologiyalarını tətbiq etməklə arxiv işinin modernləşdirilməsini, arxiv sənədlərinin rəqəmsallaşdırılmasını və vahid elektron arxiv məlumat sisteminin yaradılmasını təmin edir" sözləri ilə əvəz edilsin;

1.7. 8.10-cu bənddə "saxlama müddətləri də göstərilməklə sənədlərin nümunəvi siyahılarını işləyib hazırlayır və təsdiq edir, idarələr tərəfindən saxlama müddətləri göstərilməklə işlənib hazırlanmış siyahılara baxır və" sözləri "dövlət orqanlarının (qurumlarının), bələdiyyə orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyəti nəticəsində yaranan arxiv sənədlərinin saxlanılma müddəti göstərilməklə nümunəvi siyahısını və həmin müddətlərin tətbiqi qaydasını təsdiq edir, dövlət orqanları (qurumları), bələdiyyə orqanları, idarə, müəssisə və təşkilatlar tərəfindən hazırlanmış arxiv sənədlərinin sahə siyahılarını" sözləri ilə əvəz edilsin;

1.8. 8.14-cü bənd ləğv edilsin;

1.9. 8.15-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.15. dövlət arxiv xidməti təşkilatlarının fəaliyyət sahələri üzrə ödənişli arxiv xidmətlərinin siyahısı və onların göstərilməsinə görə xidmət haqlarının məbləği barədə aidiyyəti üzrə təkliflər verir;";

1.10. 8.16-cı bəndin üçüncü cümləsinə "dövlət arxiv" sözlərindən sonra "xidməti" sözü əlavə edilsin;

1.11. aşağıdakı məzmunda 9.4-1-ci bənd əlavə edilsin:

"9.4-1. arxiv işi sahəsi üzrə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin arxiv xidməti qurumları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin arxiv işi sahəsindəki təcrübəsini öyrənmək;";

1.12. 13.3-cü bənddə "və tabeliyində olan qurumların əsasnamələrini təsdiq edir" sözləri ", tabeliyində olan qurumların, Elmi-Metodiki Şuranın və Mərkəzi Ekspert-Yoxlama Komissiyasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini təsdiq edir, həmçinin bu Əsasnamənin 15-1-ci bəndi ilə İdarənin kollegiyasının (bundan sonra - kollegiya) səlahiyyətlərinə aid edilməyən məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir" sözləri ilə əvəz edilsin;

1.13. aşağıdakı məzmunda 13.3-1-ci bənd əlavə edilsin:

"13.3-1. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, katibliyin rəhbərini və tərkibini təsdiq edir;";

1.14. 13.4-cü və 13.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"13.4. əmrlər və sərəncamlar formasında qeyri-normativ hüquqi aktları qəbul edir, onların və İdarədə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, habelə İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;";

"13.6. İdarənin aparatının işçilərini, strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;";

1.15. 14-cü bəndin birinci cümləsində "İdarə sisteminin" sözləri "Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbəri, İdarənin rəhbər işçiləri" sözləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsindən "şəxsi" sözü çıxarılsın;

1.16. 15-ci bənd aşağıdakı redaksiyada verilsin:

"15. "Kollegiya öz iclasında İdarənin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.";

1.17. aşağıdakı məzmunda 15-1-ci bənd əlavə edilsin:

"15-1. Kollegiya qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

15-1.1. İdarə ilə digər şəxslər (qurumlar) arasındakı münasibətləri tənzimləyən normativ hüquqi aktları;

15-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən İdarəyə tapşırılmış konkret normativ hüquqi aktları;

15-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

15-1.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

15.1.5. İdarə rəisinin təşəbbüsü ilə kollegiyanın müzakirəsinə çıxarılan bu Əsasnamənin 13.3-cü bəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

15-1.6. bu Əsasnamənin 15-1.1-15-1.5-ci bəndlərinə uyğun olaraq kollegiyanın qəbul etdiyi normativ hüquqi aktların ləğvi və onlarda dəyişikliklər edilməsi barədə normativ hüquqi aktları.";

1.18. 17-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Kollegiyanın qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.";

1.19. aşağıdakı məzmunda 17-1-ci bənd əlavə edilsin:

"17-1. Kollegiyanın üzvləri arasında fikir ayrılığı yarandığı hallarda İdarənin rəisi bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməklə öz qərarını həyata keçirir. Kollegiyanın üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edə bilərlər.";

1.20. 18-ci bəndə "nümayəndələri" sözündən əvvəl ", qeyri-hökumət təşkilatlarının" sözləri əlavə edilsin;

1.21. 19-cu bənddə "Elmi" sözü "Elmi-Metodiki" sözləri ilə əvəz edilsin;

1.22. 20-ci bənd ləğv edilsin;

1.23. aşağıdakı məzmunda 21-ci bənd əlavə edilsin:

"21. Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı İdarənin qərarlarından, hərəkət və hərəkətsizliyindən (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"də nəzərdə tutulmuş hallar istisna olmaqla) verilmiş təkrar şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibələrin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin aparatının, onun strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin say həddini bir ay müddətində müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336; № 12 (I kitab), maddələr 1432, 1440, № 4 maddə 306, № 5 maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208; № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89; Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 487-VIQD nömrəli və 26 aprel tarixli 517-VIQD nömrəli qanunları) 391-ci maddəsinin adı və dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"Maddə 391. Milli arxiv fondu sahəsində qanunvericiliyin pozulması**

391.1. Milli arxiv fondu sahəsində qanunvericiliyin tələblərinin pozulmasına, yəni:

391.1.1. arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi qaydalarının pozulmasına;

391.1.2. Milli arxiv fondunun mühafizəsi qaydalarının, habelə arxiv fondu sənədlərinin daimi mühafizə məqsədilə dövlət arxivlərinə təhvil verilməsinin "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətlərinin pozulmasına;

391.1.3. arxiv fondlarının tərkibi və həcmi barədə məlumatların verilməsi formasının və müddətinin pozulmasına;

391.1.4. Milli arxiv fondu sənədlərindən istifadə qaydasının pozulmasına görə -".

**Maddə 2. Keçid müddəa**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 391.1.3-cü və 391.1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətanın törədilməsinə görə məsuliyyət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən arxiv fondlarının tərkibi və həcmi barədə məlumatların verilməsi forması və Milli arxiv fondu sənədlərindən istifadə qaydası müəyyən edildikdən sonra yaranır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 573-VIQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 573-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 573-VIQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 573-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddələr 1323, 1335; 2021, № 12, maddə 1312) aşağıdakı məzmunda 16.2.3-1-ci maddə əlavə edilsin:

"16.2.3-1. fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verildiyinə dair həmin dövlət arxiv xidməti təşkilatı tərəfindən verilmiş arayış;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının yaradılması haqqında" 1999-cu il 14 may tarixli 146 nömrəli və "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın təsdiq edilməsi haqqında" 2000-ci il 6 mart tarixli 347 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 146 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 307; 2010, № 2, maddə 80; 2016, № 7, maddə 1295) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulada "saxlanmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

1.2. həmin Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Sənəd dövriyyəsi şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini

Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi.";

1.3. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyası haqqında Əsasnamə" üzrə:

1.3.1. 1-ci hissə üzrə:

1. 1-ci bəndə "Administrasiyasında" sözündən sonra "(bundan sonra - Administrasiya)" sözləri əlavə olunsun və həmin bənddə "Komissiyası*" sözü "Komissiyası (bundan sonra - Mərkəzi Ekspert Komissiyası)" sözləri ilə, "Dövlət Arxivinə" sözləri "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinə (bundan sonra - Dövlət Arxivi)" sözləri ilə əvəz edilsin;

2. 2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2. Mərkəzi Ekspert Komissiyası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanlarını, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 1374 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərlə iş barədə Təlimat"ı, Azərbaycan Respublikası Prezidentinin digər sərəncamlarını, bu Əsasnaməni və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını rəhbər tutur.";

3. 3-cü bəndin ikinci cümləsində "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının" sözləri "Administrasiya" sözü ilə əvəz edilsin;

4. 4-cü bənddə "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında" sözləri "Administrasiyada" sözü ilə, "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məxfi hissəsi" sözləri "Sənəd dövriyyəsi şöbəsinin müvafiq struktur bölməsi" sözləri ilə əvəz edilsin və həmin bənddən "xüsusi" sözü çıxarılsın;

1.3.2. 2-ci hissənin 1-ci bəndi üzrə:

1. ikinci abzasda "Prezidentin Administrasiyasının Arxivində" sözləri "Administrasiyanın fəaliyyəti nəticəsində yaranan arxiv sənədlərinin məcmusunun komplektləşdirilməsini, qeydiyyatını, mühafizəsini və istifadəsini həyata keçirən müvafiq struktur bölməsində (bundan sonra - Administrasiyanın Arxivi)" sözləri ilə əvəz edilsin;

2. dördüncü abzasda "saxlanan və saxlanma" sözləri "mühafizə olunan və saxlanılma" sözləri ilə əvəz edilsin;

1.3.3. 2-ci hissənin 2-ci bəndi üzrə:

1. ikinci abzasda "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının" sözləri "Administrasiyanın" sözü ilə, "saxlanmasının" sözü "mühafizəsinin" sözü ilə və "uçotunun" sözü "qeydiyyatının" sözü ilə əvəz edilsin;

2. üçüncü abzasda "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

3. dördüncü abzasda "saxlama" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

4. beşinci abzasda "Prezidentin Administrasiyasında" sözləri "Administrasiyada" sözü ilə əvəz edilsin;

5. altıncı abzasda "Prezidentin Administrasiyasının" sözləri "Administrasiyanın" sözü ilə əvəz edilsin;

6. yeddinci abzasda "uçot" sözü "qeydiyyat" sözü ilə əvəz edilsin;

7. on birinci abzasda "Prezidentin" sözü "Azərbaycan Respublikası Prezidentinin" sözləri ilə əvəz edilsin;

1.3.4. 2-ci hissənin 3-cü bəndi üzrə:

1. ikinci abzasda "Prezidentin Administrasiyasının" sözləri "Administrasiyanın" sözü ilə, "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

2. üçüncü abzasda "uçotunun" sözü "qeydiyyatının" sözü ilə əvəz edilsin;

3. beşinci abzasdan "Azərbaycan Respublikası" sözləri çıxarılsın;

4. səkkizinci abzasda "Prezidentin Administrasiyası" sözləri "Administrasiyanın" sözü ilə əvəz edilsin;

1.3.5. 3-cü hissə üzrə:

1. 2-ci bənddən "Azərbaycan Respublikasının" sözləri çıxarılsın və həmin bənddə "Prezidentin Administrasiyasının" sözləri "Administrasiyanın" sözü ilə əvəz edilsin;

2. 3-cü bəndin birinci cümləsində "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının" sözləri "Administrasiyanın" sözü ilə əvəz edilsin və ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Mərkəzi Ekspert Komissiyasının iclaslarına həmçinin Dövlət Arxivinin bir nümayəndəsi dəvət olunur.";

3. 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4. Mərkəzi Ekspert Komissiyasının tərkibi (sədr daxil olmaqla) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Mərkəzi Ekspert Komissiyasının sədri üzrlü səbəbə görə olmadıqda sədrin müəyyən etdiyi üzv komissiyanın iclaslarını çağırır və iclaslarda sədrlik edir.".

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186; 2016, № 5, maddə 927, № 9, maddə 1464; 2017, № 3, maddə 353; 2018, № 6, maddə 1297; 2019, № 3, maddə 448; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 may tarixli 3251 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 105-ci bəndin birinci cümləsində "on il ərzində saxlanılır" sözləri "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə müvəqqəti mühafizə olunur və həmin müddət başa çatdıqdan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq daimi dövlət mühafizəsinə təhvil verilir" sözləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın;

2.2. 118-ci bəndin birinci cümləsində və 126-cı bəndin birinci abzasının ikinci cümləsində "saxlanmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

2.3. 120-ci bənddə "saxlanma" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

2.4. 123-cü bəndin birinci abzasında "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

2.5. 127-ci bənd üzrə:

2.5.1. birinci abzasda "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

2.5.2. ikinci abzasda "beş illik müddət başa çatdıqdan sonra daimi saxlanmaq üçün Dövlət Arxivinə (onun yerli şöbə və ya filialına)" sözləri "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müvəqqəti mühafizə müddəti başa çatdıqdan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq daimi dövlət mühafizəsinə" sözləri ilə əvəz edilsin;

2.5.3. üçüncü - yeddinci abzaslar ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli, "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2005-ci il 19 yanvar tarixli 179 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 28 dekabr tarixli 695 nömrəli, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2011-ci il 22 noyabr tarixli 525 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nin təsdiq edilməsi haqqında" 2012-ci il 21 dekabr tarixli 792 nömrəli, "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 23 iyun tarixli 950 nömrəli və "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 27 mart tarixli 975 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486; 2007, № 5, maddə 459; 2008, № 6, maddə 498, № 8, maddə 721; 2015, № 7, maddə 837; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 209, № 3, maddə 410, № 11, maddə 1701; 2021, № 1, maddə 41; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 avqust tarixli 1802 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 45-ci bənddə "saxlanan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

1.2. 52-ci bəndin birinci abzasında "saxlanmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

1.3. 131-ci bənddə "saxlanma" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

1.4. 134-cü bənddə "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

1.5. 138-ci bənd üzrə:

1.5.1. birinci abzasda "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

1.5.2. ikinci abzasın birinci cümləsində "sənədlər" sözü "arxiv fondu sənədləri" sözləri ilə, "saxlanma" sözü "mühafizə" sözü ilə, "daimi saxlanmaq üçün Dövlət Arxivinə təhvil verilir" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq daimi dövlət mühafizəsinə təhvil verilməlidir" sözləri ilə əvəz edilsin;

1.6. 139-cu bənd ləğv edilsin;

1.7. 153.2-ci yarımbənddə "Qanunda müəyyən edilmiş müddətdən az olmamalıdır" sözləri "Qanununa uyğun olaraq müəyyən edilmiş müddətdə olmalıdır" sözləri ilə əvəz edilsin;

1.8. 153.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"153.7. elektron sənədlər daimi mühafizə üçün dövlət arxivinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq təhvil verilir;";

1.9. həmin Təlimata 15 nömrəli Əlavə üzrə:

1.9.1. "İşlərin nomenklatur-siyahısı"nda "Saxlama" sözü "Saxlanılma" sözü ilə əvəz edilsin;

1.9.2. "Hazırlanmış işlərin kateqoriyaları və miqdarı haqqında yekun qeydi"ndə "Saxlanma" sözü "Saxlanılma" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 13; 2016, № 7, maddə 1262; 2017, № 3, maddə 353; 2018, № 12 (I kitab), maddə 2590) ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli, "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2005-ci il 19 yanvar tarixli 179 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 28 dekabr tarixli 695 nömrəli, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2011-ci il 22 noyabr tarixli 525 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nin təsdiq edilməsi haqqında" 2012-ci il 21 dekabr tarixli 792 nömrəli, "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 23 iyun tarixli 950 nömrəli və "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 27 mart tarixli 975 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 4-cü səh.*

2.1. 150-ci bənddə "saxlama" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

2.2. 179-cu bənddə "uçotunu və saxlanılmasını" sözləri "qeydiyyatını və mühafizəsini" sözləri ilə əvəz edilsin;

2.3. 183-cü bəndin birinci cümləsində hər iki halda "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə, "saxlanılması" sözü "mühafizəsi" sözü ilə, "saxlama" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

2.4. 184-cü bəndin birinci cümləsində "uçot" sözü "qeydiyyat" sözü ilə, "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə və ikinci cümləsində "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə əvəz edilsin;

2.5. 185-ci bəndin birinci abzasında hər iki halda "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə, ikinci halda "saxlama" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

2.6. 186-cı bənd üzrə:

2.6.1. birinci abzasın birinci cümləsində "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

2.6.2. ikinci abzasda hər iki halda "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə əvəz edilsin;

2.6.3. üçüncü abzasda "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə əvəz edilsin;

2.7. 187-ci bənd üzrə:

2.7.1. birinci abzasda "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə əvəz edilsin;

2.7.2. üçüncü abzasda hər iki halda "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

2.8. 188-ci bənddə "uçotu və saxlanılması" sözləri "qeydiyyatı və mühafizəsi" sözləri ilə əvəz edilsin;

2.9. 189-cu bəndin birinci cümləsində "saxlanılmalı" sözü "mühafizə olunmalı" sözləri ilə, "saxlanıldıqdan" sözü "mühafizə olunduqdan" sözləri ilə əvəz edilsin;

2.10. 190-cı bənd üzrə:

2.10.1. birinci abzasda "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

2.10.2. ikinci abzasda "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə, "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

2.11. 191-ci bənddə "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

2.12. 192-ci bəndin ikinci cümləsində "saxlanılmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin;

2.13. 193-cü bənddə "saxlama" sözü "saxlanılma" sözü ilə əvəz edilsin;

2.14. 195-ci bənddə "Saxlama" sözü "Saxlanılma" sözü ilə, "saxlanılan" sözü "mühafizə olunan" sözləri ilə əvəz edilsin;

2.15. 197-ci bəndin üçüncü abzasında "uçotuna və saxlanılmasına" sözləri "qeydiyyatına və mühafizəsinə" sözləri ilə əvəz edilsin;

2.16. Qaydaya 13 nömrəli əlavə - "Xüsusi əhəmiyyətli, tam məxfi və məxfi işlərin nomenklaturu"nda "Saxlama" sözü "Saxlanılma" sözü ilə əvəz edilsin;

2.17. Qaydaya 36 nömrəli əlavə - "Sənədlərin və işlərin məhvetmə aktı"nda "saxlama" sözü "saxlanılma" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245; 2008, № 10, maddə 898; 2009, № 4, maddə 219, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 3, maddə 458; 2017, № 3, maddə 360; 2018, № 11, maddə 2278; 2021, № 7, maddə 727) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.44-cü bəndində "sənədlərin uçotunu, saxlanılmasını" sözləri "arxiv sənədlərinin qeydiyyatını, mühafizəsini" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834, № 10, maddə 1587; 2021, № 9, maddə 988) ilə təsdiq edilmiş Əlavə V - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 8.19-cu bəndində "saxlanılması və uçotunun" sözləri "mühafizəsi və qeydiyyatının" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 22 noyabr tarixli 525 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 997) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.55-ci bəndində "saxlanmasını və uçotunu" sözləri "mühafizəsini və qeydiyyatını" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1707 nömrəli və 8 iyun tarixli 1710 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.10-cu yarımbəndində "saxlanmasını, qorunmasını, müəyyən olunmuş müddətlərdə nomenklatura uyğun seçilərək Dövlət Arxivinə" sözləri "mühafizəsini, müvəqqəti mühafizə müddətləri başa çatdıqdan sonra arxiv fondu sənədlərinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq daimi dövlət mühafizəsinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 792 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1266) ilə təsdiq edilmiş "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nin 4.5-ci bəndində "saxlanıldıqdan sonra Dövlət Arxivinin Ekspert-Yoxlama Komissiyasının təsdiq etdiyi siyahılar əsasında dövlət arxivinə təhvil verilməlidir" sözləri "saxlanılır" sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə olunsun:

"Müvəqqəti mühafizə müddətləri başa çatdıqdan sonra arxiv fondu sənədləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq daimi dövlət mühafizəsinə təhvil verilməlidir.".

8. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1046) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nın 5.5-ci bəndinin ikinci cümləsində "qorunub saxlanmasına" sözləri "mühafizəsinə" sözü ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251) aşağıdakı dəyişikliklər edilsin:

9.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin 3.0.33-cü yarımbəndində "saxlanılmasını və uçotunu" sözləri "mühafizəsini və qeydiyyatını" sözləri ilə əvəz edilsin;

9.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti haqqında Əsasnamə"nin 3.0.40-cı yarımbəndində "saxlanılmasını və uçotunu" sözləri "mühafizəsini və qeydiyyatını" sözləri ilə əvəz edilsin;

9.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti haqqında Əsasnamə"nin 3.0.47-ci yarımbəndində "saxlanılmasını və uçotunu" sözləri "mühafizəsini və qeydiyyatını" sözləri ilə əvəz edilsin;

9.4. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti haqqında Əsasnamə"nin 3.0.74-cü yarımbəndində "saxlanılmasını və uçotunu" sözləri "mühafizəsini və qeydiyyatını" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında" 2007-ci il 19 mart tarixli 560 nömrəli, "Azərbaycan Respublikasının ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 10 fevral tarixli 218 nömrəli, "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" 2010-cu il 24 may tarixli 271 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi barədə" 2012-ci il 4 iyun tarixli 646 nömrəli, "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 8 oktyabr tarixli 709 nömrəli, "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamənin, onun strukturunun, habelə hərbi qulluqçularının və mülki işçilərinin ümumi say həddinin təsdiq edilməsi barədə" 2017-ci il 9 fevral tarixli 1227 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 18 iyul tarixli 215 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431, № 5, maddə 860, № 6, maddə 1044, № 12, maddə 1927; 2020, № 7, maddə 882; 2021, № 5, maddə 439; 2022, № 1, maddə 29, № 4, maddə 332) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.48-ci bəndindən "saxlanılması və" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 239; 2008, № 1, maddə 4, № 3, maddə 168, № 8, maddə 722, № 11, maddə 970; 2009, № 1, maddə 11, № 4, maddə 221, № 7, maddə 532, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 193, № 7, maddə 625; 2011, № 2, maddə 85, № 3, maddə 178, № 11, maddə 994; 2012, № 4, maddə 287; 2013, № 2, maddə 121, № 5, maddə 513, № 9, maddə 1044, № 12, maddə 1551; 2014, № 9, maddə 1063; 2015, № 2, maddə 119, № 9, maddə 978; 2016, № 5, maddə 868; 2017, № 5, maddə 816; 2019, № 5, maddə 836) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 9.29-cu bəndindən "saxlanılması və" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 82; 2013, № 2, maddə 118; 2016, № 2 (II kitab), maddə 248; 2017, № 11, maddə 2026) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydası"nın 8.6-cı bəndində "saxlanmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 271 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 400, № 6, maddə 500; 2013, № 2, maddə 119; 2016, № 2 (II kitab), maddə 247; 2018, № 1, maddə 38) ilə təsdiq edilmiş "Bələdiyyələrin Dövlət reyestrinə daxil edilən bələdiyyələrin xəritələrinin hazırlanması Qaydası"nın 8.3-cü bəndində "saxlanmaq" sözü "mühafizə" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 iyul tarixli 1774 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.67-ci yarımbəndindən "saxlanılması və" sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.55-ci yarımbəndindən "saxlanılmasını və" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97, № 6, maddə 702; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 iyul tarixli 1753 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 3.1.49-cu yarımbəndindən "saxlanılmasını və" sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 oktyabr tarixli 709 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 948; 2019, № 10, maddə 1579) ilə təsdiq edilmiş "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin 3.1.9-cu yarımbəndindən "saxlanılmasını və" sözləri çıxarılsın.

9. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 171; 2018, № 10, maddə 2021) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamə"nin 3.0.14-cü yarımbəndindən "saxlanılmasını və" sözləri çıxarılsın.

10. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1501, № 11, maddə 2275; 2019, № 6, maddə 1049; 2020, № 2, maddə 96) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 3.1.25-ci yarımbəndindən "saxlanılmasını və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2022-ci il*




# Azərbaycanda sənətə, sənətkara yüksək hörmət və ehtiram var

## Ulu Öndərin ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir

*Əvvəli 1-ci səh.*

Mədəniyyətin bütün sahələrində uğurlar qazanıldı. Neçə-neçə görkəmli bəstəkar, şair, yazıçı, heykəltəraş, rəssam, memar yetişdi. Onlara fəxri adlar verilməsi, Bakıda və digər bölgələrdə, hətta ölkəmizin hüdudlarından kənarda yubileylərinin keçirilməsi ənənəyə çevrildi. Heydər Əliyev hakimiyyətinin birinci dönəmində Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza və digərləri yüksək fəxri adlara layiq görüldülər.

O, yaşadığı dövrün siyasi durumundan, ab-havasından asılı olmayaraq, Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətimizin rifahı naminə səmərəli işlər həyata keçirdi. Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafına töhfə verən sənətkarların daim qayğısına qaldı. Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə böyük sənət adamları arasında dərin hörmət və nüfuz qazandırdı.

1993-cü ilin iyununda Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycan mədəniyyətinə yeni ab-hava gətirdi. Onlarla sənətkara fəxri ad, Prezident təqaüdü, müxtəlif mükafatlar verildi. Neçə-neçə unudulmuş mədəniyyət xadiminin yubiley tədbirləri dövlət səviyyəsində təşkil olundu. Heydər Əliyev mədəniyyət işçilərinə maddi və mənəvi yardım göstərməklə, dəstək verməklə kifayətlənmir, eyni zamanda yeni, gözəl, mükəmməl əsərlərin ərsəyə gəlməsinə şərait yaradırdı. Azərbaycan incəsənətinin inkişafına nail olmaq üçün Heydər Əliyev hakimiyyətinin ikinci dövründə də görkəmli bəstəkarların, rəssamların, müğənnilərin, kino və teatr xadimlərinin yubileylərinin dövlət səviyyəsində keçirilməsinə, layiq olduqları fəxri adları almalarına böyük əhəmiyyət verdi. O bildirirdi: "Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər".

### Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində Prezident İlham Əliyevin misilsiz xidmətləri var

Bu gün, dövlətimizin müstəqillik yolunda inamla irəlilədiyi bir vaxtda cəmiyyətin inkişafı və daha da güclənməsi naminə insanların fərdi qabiliyyətinin, istedad və bacarıqlarının üzə çıxarılması həyati tələbata çevrilib. Bu istiqamətdə məqsədyönlü işlər görülür. Lakin bir əsas məqam da unudulmur ki, uğurların davamlı olması üçün möhkəm bünövrə labüddür. Azərbaycanda əksər sahələrdə əsrlər boyu əldə olunmuş nailiyyətlər var. Xalqımızın mədəniyyəti, incəsənəti möhkəm təməl üzərində qurulub. Bu gün ən əsas məsələlərdən biri bu bünövrənin qorunub saxlanılmasıdır. Bu mənada, Azərbaycanı dünyada tanıtmış şəxsiyyətlərə, onların dəyərli irsinə diqqət və ehtiram göstərilməsi böyük nümunədir.

Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva misilsiz xidmətlər göstərirlər. Kino, teatr, musiqi tətbiqi sənət, tarixi abidələrin qorunması və bərpası ilə bağlı qəbul olunan dövlət proqramları və Prezidentin ölkədə bu mədəniyyət sahələrinin inkişafı ilə bağlı sərəncamları ölkəmizdə mədəniyyətə, mənəvi dəyərlərin qorunub saxlanılmasına qayğının təsdiqidir. Dövlət başçısının sərəncamları ilə elm, mədəniyyət, incəsənət xadimlərinin yubiley tədbirlərinin keçirilməsi də bu diqqətin, hörmətin təzahürüdür. Bu günlərdə dünyaşöhrətli müğənni, Azərbaycan xalqının böyük oğlu Müslüm Maqomayevin anadan olmasının 80 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi respublikamızda uzun illər formalaşmış ənənənin davamı oldu.

"Musiqinin dili birdir", - deyirlər. Odur ki, xalqın milli-mənəvi keyfiyyətlərini, bənzərsiz xüsusiyyətlərini dünyaya tanıtmaqda musiqinin rolu əvəsizdir. Heydər Əliyev çıxışlarının birində deyib: "Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".

### Azərbaycana bağlı böyük sənətkar

80 illik yubileyi təntənə ilə qeyd edilən böyük sənətkar Müslüm Maqomayev də doğma vətəni Azərbaycanın adını, mədəniyyətini, musiqisini dünyada tanıdanlardan idi. Milyonlarla pərəstişkarı olan müğənni geniş salonlarda "Ey əziz anam, Azərbaycan", - deyirdi. Bakı şəhərinin ən gözəl yerlərindən birində, Dənizkənarı Milli Parkda ucaldılan möhtəşəm abidəsi dünyaşöhrətli müğənni Müslüm Maqomayevin xatirəsinə Azərbaycan xalqının sonsuz sevgisinin, Azərbaycan dövlətinin yüksək diqqətinin nümunəsi oldu. Abidənin açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etdilər. Mərasimdə çıxış edən dövlət başçısı Azərbaycan xalqının haqlı olaraq Müslüm Maqomayevlə fəxr etdiyini diqqətə çatdırdı: "Çünki o, həm böyük müğənni, həm də böyük bəstəkar idi. Sovet estradasında onun tayı-bərabəri yox idi və bu gün də Müslüm Maqomayevin ifasında səslənən mahnılar hər birimizi duyğulandırır. Hər birimizin Müslüm haqqında öz xatirələri var, o cümlədən mənim də. Mən yeniyetmə yaşlarımdan Müslümü və Tamaranı tanıyıram. Onlar bizim evimizin çox əziz qonaqları idi. Bir çox gözəl xatirələrim var. Əlbəttə ki, hər il avqust ayında Müslüm və Tamaranı biz öz evimizdə qarşılayaraq, Müslümün ad gününü evimizdə qeyd edirdik".

Sənətkarın öz doğma Vətəninə çox bağlı olan bir insan olduğunu xatırladan dövlət başçısı vurğuladı ki, Müslüm baxmayaraq ki, öz fəaliyyətini daha çox Moskvada və Sovet İttifaqının digər şəhərlərində qastrollarda keçirirdi, ancaq hər il bir neçə dəfə Bakıya gəlirdi, həm konsertlər verirdi, həm də ki, burada öz dostları ilə təmasda olurdu. Prezident tədbirdə dedi: "Atam Heydər Əliyev də onun fəaliyyətinə çox böyük diqqət yetirirdi, böyük qayğı göstərirdi. Deyə bilərəm ki, ona atalıq qayğısı göstərirdi. Çünki onu həm böyük müğənni kimi, həm də çox gözəl insan kimi tanıyırdı. Hər birimiz Müslümü məhz həm böyük sənətkar, müğənni, bəstəkar və ən başlıcası, gözəl insan, ləyaqətli insan, çox etibarlı dost kimi tanıyırdıq".

Dövlət başçısı Müslümün öz doğma torpağına bağlı olmasının yaradıcılığında da özünü göstərdiyini qeyd etdi; "Azərbaycana, Odlar Yurduna, Xəzər dənizinə həsr edilmiş onun bəstələdiyi mahnılar nə qədər əzəmətlidirsə, o qədər də Vətənə sevgi ilə dolu olan mahnılardır. O mahnılar bu gün də yaşayır və əbədi yaşayacaq. Müslümün bəstələdiyi son mahnı isə çox kədərlidir. Biz bu mahnını Bakıda Filarmoniya zalında Müslümlə vida mərasimində eşitdik və çox təsirləndik, çox duyğulandıq. Çünki bilmirdik ki, bu mahnı yazılıb, Müslim özü onu bəstələyib. O mahnının adı "Əlvida, Bakı" idi və o anlayırdı ki, artıq Bakıya gələ bilməyəcək, ən sevimli şəhərə gələ bilməyəcək, bu küçələrdən keçə bilməyəcək, Bakıdakı dostları ilə görüşə bilməyəcək. Təsəvvür etmək çətindir ki, onun kimi həyatı sevən, onun kimi, necə deyərlər, dostlarla bir yerdə olmaq həvəsində olan adam, bax, bu vida mahnısını bəstələyir və bizimlə, şəhərlə vidalaşır".

Tədbirdə iştirak edən unudulmaz sənətkarın ömür-gün yoldaşı Tamara Sinyavskaya isə çıxışında dedi: "Siz çox düzgün qeyd etdiniz ki, Müslümün əlçatmaz zirvə olmasını nəzərə alaraq, ondan özünü necə aparmağı, səhnədə necə hərəkət etməyi, dostlarla necə ünsiyyət saxlamağı öyrənmək olar. O, dostlarını heç vaxt unutmurdu, heç vaxt".

### Müslümün günü

Həmin gün "Yaşıl Teatr" Bakı Konsert Kompleksində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə dünyaşöhrətli opera və estrada müğənnisi, bəstəkar, SSRİ-nin və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin 80 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak etdilər.

Tanınmış musiqiçilər və müğənnilər Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa etdilər. Müslüm Maqomayevin repertuarından əsərlər səsləndirildi, görkəmli müğənni haqqında videoçarxlar nümayiş olundu.

Konsertdən sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və unudulmaz sənətkarın ömür-gün yoldaşı, SSRİ Xalq artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya səhnəyə gələrək ifaçılarla görüşdülər.

Xatirə gecəsində çıxış edən Prezident İlham Əliyev dedi: "Biz bu gün səhərdən Müslümün gününü qeyd edirik. Şəhərin ən gözəl yerində, Dənizkənarı Bulvarda, unudulmaz "Mavi əbədiyyət" mahnısında tərənnüm etdiyi, hamımızın çox sevdiyi Xəzər dənizinin fonunda Müslümün möhtəşəm abidəsi ucalır, onun gözəlliyini, istedadını, qamətini, məğrur simasını, ləyaqətini təcəssüm etdirir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# İqtisadi müstəqilliyin aynası

## Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda yalnız öz gücünə həyata keçirdiyi genişmiqyaslı yenidənqurma işləri dövlətin qüdrətinin göstəricisidir

*Əvvəli 1-ci səh.*

Erməni barbarlarının 30 il ərzində daşı-daş üstündə qoymadıqları şəhər və rayonlarda, qəsəbə və kəndlərdə görülən işlər misilsizdir.

### İşğaldan azad edilmiş ərazilərin ümumi planı təsdiq edilib

Qarabağ və Şərqi Zəngəzurda 1 il 9 ay müddətində reallaşan möhtəşəm layihələr dünyanın da diqqətini cəlb edir. İqtisadi qüdrəti getdikcə artan Azərbaycan dövləti şəhər və kəndlərini, tarixi-dini abidələrini sürətlə bərpa edir. Artıq demək olar ki, Böyük qayıdış proqramının icrasına da start verilib. Müstəqillik bayramımızı qeyd etdiyimiz əlamətdar gündə Zəngilanın Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi keçirildi. İyulun 19-u isə tarixi gün kimi yaddaşlara yazıldı. Abşeron rayonunun Masazır kəndi ərazisində məcburi köçkünlər üçün salınmış "Zəngilan" şəhərciyindən 41 ailə illər sonra Yeni Ağalıya qayıtdı.

İşğaldan azad olunmuş ərazilərin bərpasını iqtisadi qüdrəti hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Nazirlər Kabitetinin 2022-ci il 16 avqust tarixli qərarı ilə "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı", həmçinin digər qərarla "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"ı da təsdiq edilib.

Növbəti iyirmi illik dövrü əhatə edən bu planların hazırlanması zamanı regionda müasir tələblərə cavab verən yeni infrastrukturun qurulması, şəhərlərə tezliklə qayıdacaq əhalinin yüksək yaşayış standartlarının, təhlükəsizliyinin, iş imkanlarının və yaşayış məntəqələrinin dayanıqlı inkişafının təmin olunması prioritet götürülüb, aparıcı dünya təcrübəsi öyrənilərək tətbiq edilib, "yaşıl" enerji, "ağıllı" şəhər və bir çox digər müasir şəhərsalma yanaşmaları tətbiq olunub.

### Modern yollar, körpülər, tunellər, keçidlər tikilir

Əlbəttə ki, bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət daşıyır. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların təməlini qoyur və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Hazırda dövlət büdcəsindən ayrılmış vəsait hesabına işğaldan azad edilmiş ərazilərimizdə 14 avtomobil yolunun tikinti işləri davam etdirilir.

Tikintisi cəmi bir ilə həyata keçirilən Zəfər yolu ilə indi ölkə vətəndaşları, xarici qonaqlar Şuşaya rahat səfərlər edə bilirlər.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir.

### 14 avtomobil yolunun 8-nin tikintisi bu il başa çatacaq

Azad edilmiş ərazilərimizdə inşa edilən 14 avtomobil yolunun 8-nin tikinti işlərinin bu il başa çatdırılması gözlənilir. Avqustun 11-də mühüm yollardan biri sayılan Laçından yan keçən avtomobil yolunda tikinti işlərinin yekunlaşdığı barədə məlumat verilib. Tikinti işləri davam edən 7 yolun - Füzuli-Hadrut, Hadrut-Tuğ-Azıx mağarası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan, Kəlbəcər və Laçın rayonları ərazisində reallaşdırılan layihələrin son mərhələsi icra edilir.

İnşa edilməkdə olan daha 7 yol - Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl- Hadrut, Ağdam-Füzuli, Əhmədbəyli-Füzuli-Şuşa, Əhmədbəyli-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Kəlbəcər-Laçın və Toğanalı-Kəlbəcər-İstisu yol layihələrinin növbəti illərdə yekunlaşacağı bildirilir.

Zəngəzur dəhlizinin əsas yol-nəqliyyat infrastrukturu hesab olunan və Azərbaycan üçün böyük əhəmiyyətə malik olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi də sürətlə davam etdirilir. Bu, həmin yolun 81-101-ci kilometrlərinin inşasını həyata keçirən "AzVirt" MMC-nin gördüyü işlərlə bağlı yayılan video süjetdə də aydın görünür. Ümumi uzunluğu 123,8 km olan yolun təməli 2021-ci il aprelin 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl-Zəngilan rayonlarına səfərləri zamanı qoyulub. Yol işğaldan azad edilmiş ərazilərin inkişafı üçün əhəmiyyətli olan 10 yol-infrastruktur layihələrindən biri hesab edilir.

Başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu 6 və 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 80 kilometrlik hissəsi 3 gediş - 3 gəliş olmaqla 6, qalan 43,8 kilometrlik hissəsi isə 2 gediş - 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun olaraq zəruri yerlərdə ümumi uzunluğu 6015 metr təşkil edən 3 avtomobil tuneli, 2 viaduk və 23 avtomobil körpüsü, 8 yol ötürücüsü, 50 yeraltı keçid, 5 yerüstü keçid, suların ötürülməsini təmin etmək məqsədilə 400 dairəvi boru və düzbucaqlı su keçidi, həmçinin kommunikasiya xətləri üçün 60 ehtiyat keçidinin inşası nəzərdə tutulub ki, bu işlərin müəyyən hissəsi artıq icra olunur. Hazırda 8 körpünün təməl və svay işləri görülür.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir və hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür.

Bu gün əsas diqqət dəhlizin quru yollarının açılışına istiqamətlənib. Bu istiqamətdə daha bir layihə reallaşdırılır- Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti. Dəmir yolu xəttinin 2023-cü ildə istifadəyə verilməsi gözlənilir.

Ötən il fevralın 14-də İlham Əliyev Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin təməlini qoyaraq Azərbaycanın 10 noyabr Bəyanatının müddəalarına sadiqliyini bir daha təsdiqlədi. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti Zəngəzur dəhlizinin bir parçasıdır. Dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq böyük hissəsi tamamlanıb. Dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 km təşkil edir. Tikinti işləri 3 mərhələdə həyata keçirilib. Layihə çərçivəsində 8 stansiya, 3 tunel, 41 körpü, 3 qalereya, 4 yolötürücü və ümumilikdə 300-ə yaxın mühəndis qurğusunun tikintisi planlaşdırılır.

Göründüyü kimi, Qarabağı 44 günə "dəmir yumruq"la düşməndən təmizləyən Ali Baş Komandan indi "dəmir iradə" ilə 30 il ərzində viran qoyulan yurd yerlərimizi yenidən qurur, keçmiş məcburi köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qaytarılması üçün kompleks tədbirlər görür. İnfrastruktur qurulur, yollar, körpülər, yaşayış binaları, sosial obyektlər tikilir, kənd təsərrüfatı, sənayenin müxtəlif növlərinin yaradılması, turizmin inkişaf imkanları öyrənilir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni-dini abidələrimiz bərpa olunur, bir çoxu yenidən tikilir. Erməni işğalından azad etdiyimiz ərazilərə dövlətimiz öz gücü, öz vəsaiti və doğru planları ilə yeni həyat gətirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Almaniyada irqçilik və ayrı-seçkiliyin kökü kəsilmir

**Yeni rəsmi rəqəmlərə görə, Almaniya Federativ Respublikasında diskriminasiya hələ də geniş yayılıb. 2021-ci ildə ayrı-seçkiliklə mübarizə üzrə federal agentlik müvafiq qanunların pozulması ilə bağlı 5617 iş qeydə alıb. Onların əksəriyyəti irqi ayrı-seçkiliklə bağlı olub.**







Bu barədə ölkənin paytaxtı Berlində ayrı-seçkiliyə qarşı mübarizə üzrə komissiyanın illik hesabatının təqdimatı zamanı, diskriminasiyaya qarşı mübarizə üzrə yeni komissar Ferda Ataman məlumat verib. Atamanın qeyd etdiyi kimi, pozuntuların sayı əvvəlki illə müqayisədə demək olar ki, 12 faiz azalıb, lakin bu, ilk növbədə koronavirus pandemiyası və xüsusən də maska rejimi ilə bağlı məsləhətləşmələr üçün müraciətlərin sayının azalması ilə bağlıdır. Bütün digər ayrı-seçkilik növləri üzrə yardım üçün müraciətlərin sayı eyni olaraq yüksək səviyyədə qalıb. Ferda Ataman bildirib ki, hadisələrin əksəriyyəti irqçiliklə bağlı diskriminasiya ilə əlaqəlidir.

"Bizə bildirilən ayrı-seçkilik hallarının sayı narahatlıq doğurur. Eyni zamanda bu, getdikcə daha çox insanın ayrı-seçkiliyə dözmək istəmədiyini və kömək axtardığını göstərir", - deyə Ataman bildirib. O, özünü müxtəlif əsaslarla diskriminasiyanın qurbanı hesab edən hər kəsi mübarizə aparmağa və lazım gələrsə, məhkəməyə müraciət etməyə çağırıb.

İrqi ayrı-seçkilik hallarına əlavə olaraq, 2021-ci ildə pozuntuların ən çox yayılmış səbəbləri əlilliyə və ya xroniki xəstəliyə (32 faiz), habelə cinsiyyətə (20 faiz) görə qeydə alınan ayrı-seçkilik hallarıdır. Qurbanların çoxu özəl xidmətlərə əlçatanlıq (33 faiz) və iş yerində (28 faiz) ayrı-seçkilikdən şikayətlənib.

Diskriminasiyanın bəzi qurbanları müxtəlif əsaslarla ayrı-seçkiliyə məruz qaldıqlarını bildiriblər. Araşdırmanın nəticələri göstərir ki, ölkənin qaradərili sakinləri gündəlik həyatda getdikcə daha çox irqçilik və ayrı-seçkilik faktları ilə üzləşirlər.

Almaniyada ölkənin qaradərili sakinlərinə qarşı irqçilik və ayrı-seçkilik, ilk növbədə, təhsil, daşınmaz əmlak bazarı və səhiyyə sahələrində geniş yayılıb.

Bunu Berlində yerləşən "Everyone Teach One" qrupunun "Citizens for Europe" təşkilatı ilə birgə keçirdiyi sorğunun nəticələri də sübut edir. Sorğu 6000-ə yaxın afrikalı ilə onlayn müsahibələr vasitəsilə aparılıb. Respondentlərin təxminən üçdəikisi (67,6 faiz) məktəbdə və ya universitetdə həmyaşıdlarından irqi əsasda aşağı qiymət aldıqlarını bildirib. Araşdırmaya görə, irqi ayrı-seçkilik mənzil bazarında da geniş yayılmış problem olaraq qalır və sorğuya qatılan Afrika əsilli insanların 83,4 faizi bu sahədə ayrı-seçkilik rəftarına məruz qaldıqlarını bildiriblər.

Onlayn sorğuda iştirak edənlərin 66,7 faizi həkimlərin onların müraciətlərinə laqeyd münasibət bəslədiyini iddia edir. Respondentlərin çoxu polis və ya digər dövlət qurumları ilə işləyərkən tez-tez ayrı-seçkiliklə üzləşdiklərini bildiriblər.

Hesabatda Almaniya hökumətinə, qaradərililərə qarşı irqçiliklə mübarizə üçün fəaliyyət planları hazırlamağa, Afrika əsilli sakinlərin yaratdığı ictimai birliklərə dəstək verməyə və irqçilik, ayrı-seçkilik, habelə nifrət zəminində baş verən cinayətlərin qurbanları üçün məsləhət mərkəzləri açmaq çağırışı yer alıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan sərhəd mühafizəsinin 103 illiyi münasibətilə təntənəli mərasim keçirilib














Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ölkəmizin tarixi Zəfərindən ilhamlanan sərhədçilər Azərbaycan sərhəd mühafizəsinin 103 illik tarixinin şanlı səhifələrini ən yüksək əhvali-ruhiyyə, Azərbaycan dövlətçiliyinə xidmətdən irəli gələn qürur hissi ilə qarşılayırlar.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, avqustun 18-də DSX-nin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Sonra görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın xatirəsi hörmətlə yad edilib.

Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş igid oğulların xatirəsi anılıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Dövlət Sərhəd Xidmətinin Mədəniyyət Mərkəzində Azərbaycan sərhəd mühafizəsinin 103-cü ildönümü münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək Azərbaycanın sərhəd mühafizəsinin 103-cü ildönümü münasibətilə şəxsi heyəti təbrik edib.

Dövlətimizin müstəqilliyinin keşiyində hər zaman şərəflə dayanan sərhədçilərimizin 44 günlük haqq savaşında da Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirmələri, ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirmələri, yaşayış məntəqələrinin, strateji yüksəkliklərin azad olunmasında Azərbaycan sərhədçilərinin qəhrəmanlıq və igidlik salnamələri yazmaları, müharibə aparma təcrübəsində müasir texnologiyaları tətbiq etməklə ölkəmizin hərb tarixinə yeniliklər gətirmələri vurğulanıb.

Tədbirdə dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin Ermənistanla dövlət sərhədi işğaldan azad olunduqdan sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidməti şəraitinin və sosial təminatının yaxşılaşdırılması üzrə kompleks tədbirlərin həyata keçirilməsinin sürətlə davam etdirildiyi, qısa müddət ərzində azad edilmiş ərazilərdə yeni hərbi hissələrin yaradıldığı, sərhəd döyüş məntəqələrinin fəaliyyətə başladığı, müvafiq sahələrdə sərhəd nəzarəti işinin təşkilinə başlanıldığı bildirilib.

General-polkovnik E.Quliyev dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi kimi müqəddəs vəzifə ilə fəxr edən, üçrəngli dövlət bayrağımız altında milli maraqlarımızı ən yüksək səviyyədə qorumaqdan qürur duyan sərhədçilərin gələcəyə inamla baxdıqlarını, bu inamın Prezident İlham Əliyevin müdrik siyasəti və onun rəhbərliyi altında əldə edilən taleyüklü qələbələrdən qaynaqlandığını vurğulayıb.

Tədbir zamanı Prezident İlham Əliyevin 17 avqust tarixli sərəncamları şəxsi heyətə elan edilib, zabitlərə ali hərbi rütbələr təqdim olunub, xidməti-döyüş fəaliyyətində fərqlənən hərbi qulluqçular orden və medallarla təltif olunublar.

Tədbirin rəsmi hissəsindən sonra şəxsi heyət Dövlət Sərhəd Xidmətinin Mədəniyyət Mərkəzinin yaradıcı kollektivlərinin əlamətdar gün münasibətilə hazırladıqları bayram konsertini izləyib.

# Məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının müəyyən edilməsi üçün meyarlar təsdiqlənib

Məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının müəyyən edilməsi üçün meyarlar təsdiqlənib.

AZƏRTAC Nazirlər Kabinetinin qərarına dair izahı təqdim edir.

Qərar "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə qəbul olunub.

Sənəd "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinə uyğun olaraq təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq aşağıdakı meyarlara uyğun gələn təsərrüfat subyektləri və qeyri-yaşayış binalarında məcburi enerji auditinin keçirilməsini nəzərdə tutur:

- illik enerji istehlakı 1000 ton neft ekvivalentindən çox olan təsərrüfat subyektləri;
- tikinti sahəsi ən azı 10 000 kvadratmetr və ya illik enerji istehlakı 250 ton neft ekvivalentindən çox olan qeyri-yaşayış binaları.

Enerji auditi enerji effektivliyinin artırılması və enerjiyə qənaət imkanlarını, enerji itkilərinin və ətraf mühitə atılan tullantıların miqdarını və həyata keçiriləcək iqtisadi cəhətdən səmərəli enerji effektivliyi tədbirlərini müəyyənləşdirmək məqsədilə aparılır.

# Hərbçi yoldaşını qətlə yetirməkdə şübhəli bilinən şəxs tutulub

Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mirzoev Elmar Elçin oğlunun odlu silahdan açılan atəş nəticəsində aldığı güllə yarasından vəfat etməsi faktı ilə bağlı Ağdam Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrumetmə) maddəsi ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, istintaqla cinayətin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rzayev Bəhruz Sübhan oğlu tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən olunub.

Bəhruz Rzayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Avqustun 18-də baş prokuror Kamran Əliyev Şamaxı Rayon Prokurorluğunun inzibati binasında Şamaxı, Ağsu, Qobustan və İsmayıllı rayonlarının sakinlərini qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 61 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror Ağsu, Qobustan və İsmayıllı rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# Dünya dinlərinin və ənənəvi dinlərin liderlərinin qurultayı xalqlar və dinlər arasında dialoqun və əməkdaşlığın inkişafında mühüm rol oynayır

"The Astana Times" qəzetində Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri, MDB Dinlərarası Şurasının həmsədri, Şeyxülislam Allahşükür Paşazadənin "Dünya dinlərinin və ənənəvi dinlərin liderlərinin qurultayı xalqlar və dinlər arasında dialoqun və əməkdaşlığın inkişafında mühüm rol oynayır" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC məqaləni təqdim edir.



**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

Qardaş dövlətlər olan Azərbaycan ilə Qazaxıstanı ortaq etnik köklər, dil, tarix, din, mədəniyyət, habelə tarixi etnoslararası və dinlərarası tolerantlıq ənənələri birləşdirir. Ölkələrimiz dünya sivilizasiyalarının qovuşuğunda yerləşir, ona görə də xalqlarımızın dini və mədəni müxtəlifliyinin qorunub saxlanması dövlətlərimizin siyasətinin mühüm istiqamətidir. Uca Allaha şükürlər olsun ki, həm Qazaxıstanda, həm də Azərbaycanda multikulturalizmin, dinlərarası sülhün və əməkdaşlığın təmin edilməsi və inkişafı üçün hər cür şərait yaradılıb. Bu amilləri nəzərə alaraq Qazaxıstan o cümlədən Dünya dinlərinin və ənənəvi dinlərin qurultayının təsis edilməsi təşəbbüsünü irəli sürüb. Bu ideya bizim cəmiyyətlərimizdə müxtəlif millətlərə və məzhəblərə mənsub olan insanların əsrlərboyu sülh və həmrəylik şəraitində yaşadığı həyat tərzindən və ənənələrindən təbii şəkildə irəli gəlir.

Qanunauyğun haldır ki, nüfuzlu din xadimlərinin, beynəlxalq təşkilatların, elmi və ictimai dairələrin nümayəndələrinin iştirak etdiyi bu tədbir Qazaxıstanda - qarşılıqlı anlaşma və tolerantlığın hökm sürdüyü ölkədə keçirilir. Tarixi Böyük İpək yolu vasitəsilə Şərq ilə Qərbi birləşdirən Qazaxıstan həm iqtisadi əməkdaşlığın genişlənməsinə, həm də dinlərarası və sivilizasiyalararası münasibətlərin inkişafına çox dəyərli töhfə verir. Yüzilliklər boyu formalaşmış tolerantlıq ab-havası, zəmanəmizə qədər qorunub saxlanmış etnik və mədəni müxtəliflik, türkdilli xalqların milli-mənəvi həmrəyliyinin dəstəklənməsi, habelə ictimai-siyasi sabitlik Qazaxıstanın davamlı və uğurlu inkişafının təmin edilməsində tarixi nailiyyətdir.

Dünya dinlərinin və ənənəvi dinlərin liderlərinin qurultayı xalqlar və dinlər arasında dialoqun və əməkdaşlığın inkişafında mühüm rol oynayır. Mən həmin qurultayın daimi iştirakçısı və onun katibliyinin üzvü kimi bu forumun bir mühüm fərqləndirici xüsusiyyətini vurğulamaq istəyirəm. Qurultay dini liderlərin dialoqu üçün daimi fəaliyyət göstərən məkan olmaqla bərabər, həm də siyasətçilər, ictimai xadimlər və dinlərin nümayəndələri arasında görüşlər və fikir mübadiləsi üçün platformadır.

Təəssüflə qeyd etmək lazımdır ki, dünyada beynəlxalq sabitliyə və təhlükəsizliyi ciddi maneə olan ksenofobiya, islamofobiya, xristianafobiya və antisemitizm kimi ideoloji və praktiki təhdid faktları artır. Bu gün təcavüzə, zorakılığa və ayrı-seçkiliyə təhrik edən nifrət çağırışları real siyasi və sosial təhdidə çevrilib. Belə çağırışların ideoloji təsiri nəticəsində müxtəlif regionlarda sabitlik pozulur, bu isə insanlar arasında nifaq və münaqişələrə, hərbi cinayətlərə, soyqırımına gətirib çıxarır.

Söz azadlığı və demokratiya bəhanəsi ilə insanları nifrət və qarşıdurmanı qızışdıran çağırışlarla çıxış etməkdən çəkindirmək hər bir siyasi və dini liderin borcudur. Düşünürəm ki, biz, siyasi və ictimai xadimlər, din və elmi xadimləri VII qurultayda həmrəylik nümayiş etdirərək yekun sənəddə terrorizmin, nifrətə və ksenofobiyaya çağırışların, dindən tamahkar və siyasi məqsədlərlə istifadə edilməsinin bütün forma və təzahürlərini, həmçinin kilsələrdə, məscidlərdə, sinaqoqlarda və digər dini məbədlərdə dindarlara qarşı ekstremizm aktlarını qətiyyətlə pisləyəcək, dini simvolların və müqəddəs yerlərin təhqir edilməsinə qarşı etiraz səsimizi ucaldacağıq.

Biz dünya dinlərinin və ənənəvi dinlərin liderlərinin 2018-ci il oktyabr ayında Astanada keçirilmiş VI Qurultayındakı çıxışlarımızda, habelə qurultayın qəbul etdiyi sənədlərdə dəyişkən dünya şəraitində sülhə və təhlükəsizliyə, insanlar arasında qarşılıqlı anlaşmaya və həmrəylə nail olmaqda dinlərin xüsusi rolunu vurğuladıq və hərtərəfli işıqlandırdıq. O vaxt biz yaxın gələcəkdə hansı fəlakətlərlə üzləşəcəyimizi hələ bilmirdik. Biz qlobal təhdid və təhlükələrə ən başlıcası olan iqlim dəyişmələrinə bütün müasir dünyanı sarsıtmış yeni fəlakətin - COVID-19-un da əlavə olunacağını hələ təsəvvür edə bilmirdik.

VII qurultaya hazırlıq məhz belə mürəkkəb dövrdə - bütün dünyanın, o cümlədən din sahəsinin də yeni həyat şəraitinə uyğunlaşmağa məcbur olduğu, təhdidlərin, çağırışların, problemlərin və onların nəticələrinin aradan qaldırılması məsələsində dövlətlə din arasında əməkdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyi şəraitdə keçirilir.

Biz əminik ki, Qazaxıstan, zati-aliləri cənab Prezident Kasım-Jomart Tokayevin qeyd etdiyi kimi, bundan sonra da planetdə sülh və sabitlik naminə əlindən gələni edəcək, qurultayın fəaliyyətinin təmin edilməsi üzrə işi davam etdirəcək, bu iş yeni məzmun kəsb edəcək. Mən qəti əminəm və bunu həmişə vurğulamışam ki, müasir dünyada gedən mənfi proseslərə qarşı mübarizədə real nəticələrə yalnız dövlətlərin, ictimai və din xadimlərinin birbaşa əməkdaşlığı ilə nail olmaq mümkündür. Mən beynəlxalq səviyyəli çoxsaylı tədbirlərdə, o cümlədən dünya dinlərinin və ənənəvi dinlərin liderlərinin qurultayının katibliyinin 2021-ci il oktyabr ayında keçirilmiş XIX iclasında dinlər və sivilizasiyalar arasında dialoqun inkişafı üçün Qazaxıstan tərəfindən 19 il bundan əvvəl irəli sürülmüş bu tarixi əhəmiyyətli təşəbbüsün aktuallığını dəfələrlə vurğulamışam. Qurultayın tarixi əhəmiyyətini əks etdirən başlıca məqam ondan ibarətdir ki, bu təşəbbüs müasir dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun siyasi, ictimai xadimləri və dini liderləri birləşdirən ilk, keyfiyyətcə yeni platforma olub.

Biz bütün dünyada sülhə və təhlükəsizliyə nail olmaq naminə dünya dinlərinin və ənənəvi dinlərin nümayəndələrinin, dövlət xadimlərinin və ictimai xadimlərin səylərini birləşdirmək məqsədi güdən missiyanın ən yüksək səviyyədə həyata keçirilməsinə görə Qazaxıstan Prezidenti cənab Kasım-Jomart Tokayevə dərin minnətdarlığımızı bildiririk. Prezident Tokayev ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında dostluq münasibətləri bütün xalqımız tərəfindən bəyənilir. Vətən müharibəsində Qələbə münasibətilə Qazaxıstan liderinin Azərbaycanı qardaşcasına təbrik etməsi böyük minnətdarlıqla qəbul edildi. Uca Allaha şükür olsun ki, Azərbaycan və Qazaxıstan əməkdaşlığın davam etdirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərin dərinləşdirilməsi, qarşılıqlı maraq doğuran bütün sahələrdə, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mədəni və mənəvi dəyərlərin inkişaf etdirilməsi və irəlidilməsi üçün geniş imkanlara malikdirlər. Bununla əlaqədar qeyd etmək lazımdır ki, Qazaxıstanın hərtərəfli dəstəyi sayəsində Türk Dövlətləri Təşkilatının üzvü olan ölkələrin dini liderləri şurasının yaradılması ideyası real oldu və onun tam reallaşması yaxındır. Biz bunu ümumi mənəvi uğurumuz hesab edirik, çünki türk-islam mənəvi-mədəni irsinin dünya sivilizasiyasına töhfəsinin təbliğ edilməsi böyük əhəmiyyətə malikdir.

Biz əminik ki, Qazaxıstanın müstəqilliyi və dövlətçiliyi daha da möhkəmlənəcək, qardaş qazax xalqı bundan sonra da dövlətlə xalqın birliyinə güvənərək tərəqqi yolu ilə irəliləyəcək. Biz həm də Uca Yaradanın köməyi ilə ümid edirik ki, dünya dinlərinin və ənənəvi dinlərin liderlərinin ümdə və aktual mövzuya həsr edilmiş VII qurultayı konstruktiv diskussiyalar ruhunda keçəcək və sivilizasiyalar arasında dialoqun inkişafına, dostluq və qarşılıqlı anlaşma kimi ümumbəşəri dəyərlərin irəlilədilməsinə şərait yaradacaq.

# İran hərbi nümayəndə heyəti Ağdam rayonunda olub

Ölkəmizdə səfərdə olan İran İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndələrindən ibarət mütəxəssis heyəti Ağdam rayonunda olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin əməkdaşlarının da iştirak etdiyi səfərdə qonaqlar azad edilmiş ərazilərdə işğal zamanı Ermənistan silahlı birləşmələri tərəfindən törədilmiş vandalizmin nəticələri və dağıntıları ilə tanış olublar. Onlara dağıdılmış tarixi abidələrimiz və yaşayış məntəqələrimiz, eləcə də həmin ərazilərdə dövlətimiz tərəfindən aparılan sürətli yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.

İran İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndələrindən ibarət mütəxəssis heyətinin işğaldan azad olunan ərazilərə səfəri davam edir.





# Dənizkənarı Milli Parkda Qazaxıstanın turizm imkanları nümayiş etdirilir

Qazaxıstanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi çərçivəsində Dənizkənarı Milli Parkda qazax yurtası quraşdırılıb.

AZƏRTAC xəbər verir ki, aksiyada Qazaxıstanın Türkistan və Almatı vilayətlərinin turizm potensialı təqdim olunur. Ölkənin müasir istirahət mərkəzləri, tarixi və adət-ənənələri, "Qazaxıstan" mehmanxanası, "Şımbulak" dağ-xizək kurortu, "Air Astana" aviaşirkəti, "Baykonur" kosmodromu, "Kıran" milli şahin ovu mərkəzi və digər turizm məkanları tarixiliyi və gözəlliyi ilə ziyarətçiləri özünə cəlb edir.

"Discover Almaty" turoperatorun direktoru Aleksandr Aknazarov aksiyanın məqsədi haqqında deyib: "Qazaxıstanın Azərbaycandakı səfirliyinin dəstəyilə Bakıya gəlmişik. Yurtada qazaxların adət-ənənələri, tarixi abidələri, musiqisi və turistik məkanları barədə məlumat veririk. Qazaxıstan ərazisinə görə dünyada 9-ci yerdə durur. Ölkəmizin dağları, çayları, dəniz və gölləri, təbiət qoruqları müxtəlif zövqlü turistlərə xoş gələn destinasiyalardır. Məqsədimiz iki qardaş xalq arasında mədəni əlaqələri möhkəmləndirməkdir".





Almatı vilayətinin təmsilçisi Medet Niyaz Qazaxıstanın dünyada ən gözəl guşələrindən biri olduğunu vurğulayıb. O, qeyd edib ki, Almatı vilayəti bir neçə iqlim qurşağı ilə əhatələnib. Burada subarktik iqlimdən başlanmış səhraya qədər iqlim tiplərinə rast gəlmək olar. Ziyarətçilər stenddə nümayiş olunan "Jetısu mirvarisi" kitabını vərəqlədikdən sonra Almatının nə qədər heyrətamiz bir bölgə olduğuna əmin olacaqlar.

Türkistan vilayəti barədə ziyarətçilərə məlumat verən Abay Coukibay təmsil etdiyi vilayətin Böyük İpək yolunun üstündə yerləşdiyini deyib. Onun dediyinə görə, Türkistan vilayətində yerləşən Türkistan və Utrar şəhərlərindəki qədim tikililər Orta əsrlərdən bəri toxunulmaz şəkildə qalıb. Şərqlə Qərbi birləşdirən Böyük İpək yolu müxtəlif xalqları bir-birilərinə yaxınlaşdırıb, onların arasında mədəni əlaqələrin yaranmasına səbəb olub. Türkistan vilayəti məşhur abidələri ilə tanınır. Burada 1700-dən çox tarixi abidə və bir dünya əhəmiyyətli "Xoja Ahmad Yassaviy" məqbərəsi yerləşir.

Türkmənistandan Bakıya gələn Laçina Adjarova Qazaxıstan haqqında təəssüratlarını bizimlə bölüşüb: "Çox istərdim Qazaxıstana səfər edim. Bu ölkə məni daha çox toxunulmaz təbiəti ilə cəlb edir. İnsanları çox mehribandır. Nəzərə alsaq ki, mədəniyyətimizin kökü birdir, mən Qazaxıstanı özümə doğma bir ölkə hesab edirəm".

Qeyd edək ki, aksiya çərçivəsində Almatı və Şımkent şəhərlərinin, eyni zamanda Almatı, Türkistan və Manqıstan vilayətlərinin turizm imkanları nümayiş etdirilir, mədəni, konsert və əyləncə proqramları təşkil olunur.

Aksiya avqustun 31-dək davam edəcək.

# Artilleriyaçılarımız beynəlxalq müsabiqədə uğurla iştirak edirlər





Qazaxıstan Respublikasında keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin növbəti mərhələsində gecə atışları icra olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, maneələr zolağını və minalanmış ərazini keçən artilleriyaçılarımızın ikinci heyəti işıqlandırılan hədəfləri minaatan, qumbaraatan və avtomatlardan atəş açmaqla məhv edib.

Bütün tapşırıqların öhdəsindən bacarıqla gələn hərbi qulluqçularımız hakimlərin qərarına əsasən mərhələni üçüncü yerdə başa vurublar.

Qeyd edək ki, beynəlxalq müsabiqədə Azərbaycan ilə yanaşı, Qazaxıstan, Belarus, Ermənistan, Qırğızıstan, Rusiya, Tacikistan, Venesuela və Zimbabve komandaları iştirak edirlər.

# Bakıda keçiriləcək müasir silah və texnika sərgisində 26 ölkədən 200-dən çox şirkət iştirak edəcək

Sentyabrın 6-dan 8-dək Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə "Bakı-Ekspo" Mərkəzində IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi - "ADEX" keçiriləcək. Tədbirin təşkilati işlərinin icrası "Caspian Event Organisers" şirkətinə həvalə edilib.

AZƏRTAC-a bu barədə Müdafiə Sənayesi Nazirliyindən məlumat verilib.

Bildirilib ki, COVID-19 pandemiyası ilə əlaqədar yaranan fasilədən sonra sərgi yenidən təşkil edilir.

Müasir silah və texnika sərgisi olan "ADEX" Azərbaycan Respublikasının və dünya şirkətlərinin hərbi-sənaye kompleksinin gücünü və qüdrətini nümayiş etdirəcək.

26 ölkədən 200-dən çox şirkəti bir araya gətirəcək "ADEX" "Bakı-Ekspo" Mərkəzinin üç pavilyonunu və açıq sahəsini əhatə edəcək. İştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri olacaq. İlk dəfə İordaniyadan olan şirkətlərin də qatılacağı builki sərgidə Belarus, İran, İsrail, Qazaxıstan, Pakistan, Rusiya, Türkiyə və digər ölkələr milli stendləri ilə iştirak edəcəklər.

Sərginin baş sponsoru "Jadara Equipment & Defense Systems", qızıl sponsoru "Turkish Aerospace", bürünc sponsoru isə "ASFAT" şirkətidir.

Qeyd edək ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı zəfərdən sonra ilk dəfə keçiriləcək "ADEX" sərgisi müzəffər ordumuzun bu qələbəsində müstəsna rol oynayan müasir silahların əhəmiyyətini, ölkəmizin hərbi sənaye kompleksinin qüdrətini vurğulamaq üçün xüsusi önəm kəsb edir.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin stendləri "Bakı-Ekspo" Mərkəzinin birinci və üçüncü zallarında yerləşdiriləcək. Burada yerli istehsal olan ən son silah və hərbi texnika nümayiş etdiriləcək. Tədbir iştirakçıları ölkənin müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin mövcud və artmaqda olan imkanları ilə tanış ola biləcəklər.

"ADEX"də ən müasir silah növlərinin genişmiqyaslı nümayişi silahlı qüvvələrin texniki cəhətdən yenidən təchiz olunmasına töhfə verəcək, konstruktiv ünsiyyətə, təcrübə mübadiləsinə, hərbi-texniki sahədə yerli və xarici mütəxəssislər arasında səmərəli əlaqələrin qurulmasına şərait yaradacaq.

Sərgidə təyyarə və aviasiya sistemləri, dəniz gəmiləri və hərbi dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, radioelektron sistemlər, C4ISR, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, silah və sursat, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), hərbi təşkilatlar, ixracın təşviqi ilə məşğul olan müəssisələr və s. sektorlar təmsil olunacaq.

"ADEX" ilə paralel olaraq, hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirəcək 13-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" Sərgisi də keçiriləcək. Qeyd olunan sərgi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin dəstəyi ilə təşkil olunur.

"Securex Caspian" sərgisi əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi üçün əlverişli şəraitin yaradılmasına töhfə verəcək və dövlətin, cəmiyyətin, vətəndaşların daxili təhlükəsizliyinin təmin edilməsi üçün tətbiq olunan problemlərin həllinə kömək edəcək.

Sərgini Azərbaycanın hüquq-mühafizə və xilasetmə orqanlarının, qəza-xilasetmə və sərhəd xidmətlərinin rəhbərləri, beynəlxalq nümayəndə heyətləri, eləcə də şəhər infrastrukturu, nəqliyyat, sənaye müəssisələri və s. obyektlərin təhlükəsizliyinin təmin olunmasında iştirak edən mütəxəssislər ziyarət edəcəklər.

"Securex Caspian" sərgisində siqnalizasiya və əhalini xəbərdaretmə vasitələri, kriminalistik optik alətlər, qəza-xilasetmə vasitə və avadanlıqları, yanğın təhlükəsizliyi avadanlığı və s. bölmələr təqdim olunacaq.

"ADEX" və "Securex Caspian" sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb. Sərgilərin keçiriləcəyi üç gün ərzində IV Azərbaycan Beynəlxalq Müdafiə və Təhlükəsizlik Konfransı (pilotsuz sistemlər, kibertəhlükəsizlik, hərbi tibb sahəsində innovasiyalar və s. aktual mövzularda sessiyalar keçiriləcək), hərbi orkestrin çıxışları, hərbi mövzularda VR oyunları və digər tədbirlər təşkil ediləcək.

Bundan başqa, sərgi iştirakçıları ilə beynəlxalq heyətlərin, həmçinin Azərbaycanın müvafiq qurumlarının nümayəndələri arasında ikitərəfli görüşlər keçiriləcək.

Beləliklə, "ADEX" sərgisi beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevriləcək.

"ADEX"in proqramı ilə rəsmi sayt vasitəsilə tanış ola bilərsiniz **(https://adex.az/az-programme/).**

"Securex Caspian" sərgisi dövlətin, cəmiyyətin və vətəndaşların daxili təhlükəsizliyinin təmin edilməsi üçün əlverişli şəraitin yaradılması, həmçinin yeni müqavilələrin imzalanmasına geniş imkanlar yaradacaq. Daha ətraflı məlumatı rəsmi internet saytından, həmçinin sosial şəbəkələrdən əldə etmək olar **(www.adex.az, www.securexcaspian.az)**.

Sərgidə iştirak etmək üçün rəsmi sayt vasitəsilə qeydiyyatdan keçmək lazımdır **(https://adex.az/az-register/)**.

# "Snayper həddi" beynəlxalq müsabiqəsi davam edir





İran İslam Respublikasının Yəzd şəhərində keçirilən "Snayper həddi" müsabiqəsində komandalar növbəti atış çalışmalarını yerinə yetiriblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, çalışmanın şərtlərinə uyğun olaraq hərbi qulluqçular maneələr zolağını dəf edərək 300-600 metr məsafədə yerləşən hədəflərə snayper tüfənglərindən atəş açıblar.

Birinci mərhələnin şərtlərinə əsasən iştirakçı ölkələrin snayperləri fərdi şəkildə mübarizə aparırlar.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsi avqustun 27-dək davam edəcək.

# Ölkəmizin hava məkanı etibarlı müdafiə olunur

Hərbi Hava Qüvvələrinin Hava hücumundan müdafiə bölmələrində sutkaboyu fasiləsiz olaraq xidmət aparılır, hava məkanımız daima izlənilir və müvafiq tədbirlər görülür.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yüksək döyüş hazırlığının nəticəsidir ki, hava hücumundan müdafiə bölmələrinin sayıqlığı sayəsində avqustun 13-ü Şuşa şəhəri ətrafında bölmələrimizin mövqeləri üzərində kəşfiyyat məqsədli uçuşlar həyata keçirməyə cəhd göstərən qanunsuz erməni silahlı dəstələrinə məxsus kvadrakopter aşkar edilmiş və xüsusi üsulla endirilərək ələ keçirilmişdir.

Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində döyüş növbətçiliyi aparan ordumuzun şəxsi heyəti istənilən təxribatın qarşısını almağa hazırdır.

# Şimal və şimal-qərb regionlarında yanğınlarla mübarizədə müxtəlif təyinatlı 120 ədəd texnikadan istifadə edilir

Azərbaycanın şimal və şimal-qərb regionlarında meşə və meşəətrafı ərazilərdə baş vermiş yanğınların genişlənməsinin qarşısının alınması və söndürülməsi istiqamətində operativ və təxirəsalınmaz tədbirlər davam etdirilir. Yanğınsöndürmə əməliyyatlarının əksəriyyəti texnikanın və şəxsi heyətin hərəkəti üçün əlverişsiz olan mürəkkəb dağlıq relyefdə həyata keçirilir.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şabran, Qəbələ, Quba, Siyəzən və Xaçmaz rayonlarında meşə və meşəətrafı ərazilərdə baş vermiş yanğınlarla mübarizə tədbirlərində müvafiq dövlət qurumlarından olan ümumilikdə 1140 nəfərdən çox canlı qüvvədən və müxtəlif təyinatlı 120 ədəd texnikadan istifadə edilir.

Belə ki, yanğınla mübarizə tədbirlərində FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin, şimal və şimal-qərb Regional mərkəzlərinin, Mülki müdafiə qoşunlarının və Xüsusi Riskli Xilasetmə Xidmətinin 740 nəfərdən çox şəxsi heyəti, 80-ə qədər xüsusi texnikası, o cümlədən FHN-in aviasiya dəstəsinə məxsus "BE 200 ÇS" amfibiya təyyarəsi və 2 ədəd helikopteri iştirak edir. Bundan əlavə, yanğınların söndürülməsi əməliyyatlarına Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşə Təsərrüfatı Mərkəzinin və yerli icra hakimiyyətlərinin 400 nəfərdən çox canlı qüvvəsi və 40-dan çox texnikası cəlb olunub. Həmçinin yanğınların qarşısının alınması işlərində Daxili İşlər Nazirliyinin və "Azərsu" ASC-nin əməkdaşları da yaxından iştirak edirlər.

Hazırda yanğın baş vermiş ərazilərdə soyutma işləri aparılır. İsti və küləkli hava şəraitinə baxmayaraq, yanğın ocaqlarının tam söndürülməsi məqsədilə əməliyyatlar davam etdirilir.

# REGİONLAR











## Çox çəkməyəcək Ağdam yenidən ermənilərin gözdağına çevriləcək

Uzun illər boyu həsrətlə boylandığımız, əlimiz çatmayan, ünümüz yetməyən doğma yurd yerlərimizə - cənnətmisal Qarabağa qovuşmaq sevinci varlığımıza, ruhumuza hakim olaraq qalır. Ümummilli Lider Heydər Əliyev vaxtilə deyirdi ki, Qarabağsız Azərbaycan yaşaya bilməz. Bu, Azərbaycanın və azərbaycanlıların var olmasında Qarabağın roluna verilən ən böyük dəyərdir.

Qarabağımız 30 il erməni faşistlərinin işğalında çırpına-çırpına qaldı. Amma dözdü, yaşadı. Biz də Qarabağ həsrətiylə ruhsuz bədən kimi qovrula-qovrula yaşadıq. Nə üzümüz güldü, nə könlümüz açıldı, toylarımız, məclislərimiz, bayramlarımız necə də sönük olmuşdu, ilahi...

Nəyi, nə zaman və necə etməyi yaxşı bilən (bu fikri tarix tam aydınlığı ilə təsdiq etdi) Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qəbul etdiyi qərar Qarabağ zəfərini gerçəkləşdirdi. 44 gün davam edən, hər anı, hər saatı qəhrəmanlıqlarla dolu müharibə dünya strateqlərini də heyrətləndirdi. Müzəffər Ali Baş Komandanın mahir sərkərdə qüdrətiylə, vətən sevdalı oğullarımızın misli görünməmiş qəhrəmanlıqları ilə erməni ordusu darmadağın edilib diz çökdürüldü. Beləcə, biz tarixi qələbəyə, Qarabağ isə əbədi azadlığa qovuşdu.

İndi Qarabağ yeni dövrünü yaşayır. Amansız və dağıdıcı müharibədə erməni faşistlərinin daş üstə daş qoymadığı, odlara qalayıb xarabaya çevirdiyi kəndlər, şəhərlər yenidən qurulur. Bu gün Qarabağın özü boyda inşaat meydanına çevrilməsi hər birimizin ürəyini qürurlandırır.

Tikilən, qurulan kəndlər, şəhərlər sırasında Ağdamın yeri tamam başqadır. Həmişə Ağdam adı gələndə qorxan, qaçıb gizlənən ermənilər işğal illərində bu hissin əsirinə çevrilərək Ağdamdan bir nişanə qoymamağa çalışmış, abad və yaraşıqlı, çal-çağırlı bir şəhəri səhraya çevirmişlər. Amma xeyri yoxdur, indi Qarabağı, Ağdamı yenidən qurmağa bütün ölkə səfərbərdir. Hər kəs bu ümumxalq cəbhəsinə öz töhfəsini verməyə çalışır.

Dövlətimizin artan iqtisadi qüdrəti və beynəlxalq nüfuzu işğaldan azad edilmiş Ağdamı, eləcə də digər bölgələri müasir tələblərə uyğun səviyyədə, daha möhtəşəm formada yenidən tikib-qurmağa imkan verir. Bərdə istiqamətində Ağdama çoxzolaqlı yeni yol çəkilir. Paralel olaraq dəmir yolunun inşası da sürətlə davam edir. Yaşayış qəsəbələrinin infrastruktur layihələrinin həyata keçirilməsində dövlətin davamlı və hərtərəfli dəstəyini hiss edən ağdamlılar da öz növbəsində çalışdıqları sahələrdə fədakarlıq nümunəsi göstərirlər. Cari ilin yanvar-iyun aylarında Ağdam rayonu üzrə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışının dəyəri 170 milyon 157,3 min manat olmuşdur ki, bu da keçən ilin eyni dövrünə nisbətən 57,5 faiz çoxdur. Rayonun kənd əməkçiləri aqrar sahənin inkişafına sanballı töhfələr vermək üçün səy və bacarıqlarını əsirgəmirlər. Bu il taxıl sahələrində hər hektarın orta məhsuldarlığı 39,8 sentnerə çatmışdır. Cari ilin altı ayı ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,1, süd istehsalı 4,9, yumurta istehsalı 4,7 faiz artmışdır. Bu dövr ərzində rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 73 milyon 745,5 min manat və ya keçən ildəkindən 2,8 dəfə çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilən vəsaitin 98,5 faizi tikinti quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Sağlam mənəvi-psixoloji mühitin formalaşdığı, yüksək əhvali-ruhiyyənin hökm sürdüyü Ağdam sabaha inamlı addımlarla irəliləyir. Hamı görür ki, hər gələn yeni gün özüylə həyatın firəvanlıq müjdəsini gətirir. Çünki dövlətin də, xalqın da niyyəti Şərqi Zəngəzur və Qarabağın dirçəlişinə hədəflənib. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov:

- Biz xoşbəxtik ki, bu günü gördük. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti, dəmir iradəsi, Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində torpaqlarımız işğaldan azad olundu, biz otuz ilin xəcalətindən qurtulduq. Bu tarixi zəfərin sevincini bizə bəxş edənlərə nə qədər minnətdarlıq etsək də, azdır. Canları, qanları bahasına bu qələbəni gerçəkləşdirən igid oğullarımıza ömür boyu borcluyuq. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gündəlik fəaliyyətlərində şəhid ailələrinə, qazilərə qayğıkeşlik və diqqət əsas xətt kimi keçir. Bu bizim üçün də örnəkdir. Ağdam Rayon İcra Hakimiyyətinin fəaliyyətində elə gün olmur ki, şəhid ailələrinin, qazilərin üzləşdiyi hər hansı bir çətinlik aradan qaldırılmasın, təklif və müraciətlərinə həssaslıqla yanaşılmasın. Artıq biz belə bir ənənənin bünövrəsini qoymuşuq. Hər ayın ikinci həftəsinin ikinci günü rayon icra hakimiyyətində Qazilər günü keçirilməsinə qərar vermişik. Heç şübhəsiz, işin bu cür təşkili şəhid ailələrinə və qazilərə olan diqqətin effektini daha da artıracaqdır.

Ağdamda dinamik iqtisadi yüksəlişə, genişmiqyaslı təsərrüfat quruculuq işləri ilə yanaşı, sosial layihələrin də uğurlu həlli təqdirəlayiqdir. Əlbəttə, şəhid bir evin, bir ailənin deyil, hər elin şərəfidir. Onun xatirəsini uca tutmaq hər birimizin mənəvi borcudur. Vətən uğrunda savaşda sağlamlıqlarını itirmiş qazilərə münasibətdə də mövqeyi eynidir. Vaqif müəllimin söhbətindən məlum oldu ki, çox sayda şəhid ailəsinin, qazinin mənzil şəraiti yaxşılaşdırılıb, onlara arzuları ilə həyətyanı torpaq sahələri ayrılıb, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün şərait yaradılıb.

Rayonun Çullu kənd sakini üçüncü qrup əlil H.Rüstəmov:

- Qarabağ savaşında ayağımdan və qolumdan yaralanmışam. Bir qazi kimi hər yerdə qayğıkeşlik və diqqət görmüşəm. Ağdam Rayon İcra Hakimiyyətində həmişə hörmət, ehtiram görmüşəm. Sahibkarlıqla məşğul olmaq üçün yer veriblər, həyətyanı sahə ayırıblar. Bütün xahişlərim qarşılanıb. Yaradılan bu şəraitə görə dövlətimizə minnətdaram. Rayon rəhbərliyindən də çox razıyam. Çox sağ olsunlar.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Tərtərdə şəhid Azər Qasımovun adına bulaq açılıb

Tərtər rayonunun Yenikənd kəndində 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Qasımov Azər Yaqub oğlunun xatirəsinə inşa edilən bulağın açılışı olub.



Bu münasibətlə keçirilən tədbirdə rayonun və hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, şəhid ailələri, qazilər, müharibə veteranları, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək şəhid Azər Qasımovun qısa, lakin şərəfli və örnək olan həyat yolundan danışıb. Bildirib ki, ölkəmizdə şəhidlərin xatirəsi daim uca tutulur, ehtiramla anılır. Vurğulanıb ki, 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Qələbə əldə edib, torpaqlarımız erməni işğalından azad olunub.

Sonra məktəblilərin ifasında şəhidlərə həsr olunmuş şeirlər səsləndirilib.

Şəhidin anası İsmira Qasımova, əmisi Rafiq Əliyev, kənd ağsaqqalı Məhəmməd Şirinov çıxış edərək Azər Qasımovun Vətən müharibəsində göstərdiyi igidliklərindən söz açıb, şəhid ailələrinə göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Azər Qasımov ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

## Şəhidin doğum günü qeyd olunub

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Tərtər rayonunun Evoğlu kənd sakini Hacızadə Ceyhun İfrayıl oğlunun doğum günü məzarı önündə qeyd olunub.



Bu münasibətlə RİH-nin və YAP rayon təşkilatının nümayəndələri, şəhidlərin ailə üzvləri, qazilər, veteranlar, kənd sakinləri şəhidin məzarını ziyarət edərək önünə gül dəstələri düzüb, ruhuna dualar oxuyublar. Qeyd edək ki, Ceyhun Hacızadə 1992-ci il avqustun 16-da Tərtər rayonunun Evoğlu kəndində anadan olub. Vətən müharibəsində iştirak edib və 2020-ci il oktyabrın 7-dən Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## Şəhid ailələri və qazilərin problemləri operativ həll edilir

Şəmkirdə şəhid ailələri və qazilərlə tez-tez görüşlər keçirilir, onların problemlərinin aradan qaldırılması üçün operativ tədbirlər görülür.



Növbəti görüş bu günlərdə keçirilmişdir. Görüşü giriş sözu ilə RİH-nin başçısı Rəşad Tağıyev açaraq 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi zəfərdən, Vətən müharibəsində Şəmkirin igid oğullarının qəhrəmanlıqlarından söhbət açmış və diqqətə çatdırmışdır ki, bu gün dövlət şəhid ailələrinə, qazilərə hər cür qayğıkeşlik göstərərək onların sosial müdafiəsinin təmin olunması istiqamətində çoxsaylı tədbirlər həyata keçirir.

Sonra şəhid ailələrinin və qazilərin arzu və istəkləri dinlənilmişdir. Qaldırılan bəzi məsələlər elə yerindəcə həll edilmiş, bəziləri isə nəzarətə götürülmüşdür. Şəhid ailələri və qazilər göstərilən diqqətə görə təşəkkürlərini bildirmişlər.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## İş olan yerdə nəticə də var

Goranboy əhalisi əsasən, heyvandarlıq, bitkiçilik, baramaçılıq, arıçılıq və digər kənd təsərrüfatı sahələri ilə məşğul olur və xüsusən son illər uğurlu nəticələr əldə edir.



Hər il olduğu kimi, cari ilin ötən dövrü də fermerlər üçün uğurlu olub. Bu sırada öncə 23905 hektarda taxıl əkən fermerlərin hər hektardan 33,9 sentner buğda, 33,2 sentner arpa istehsal etmələrini qeyd etmək istərdik. Bundan əlavə, cari il rayonda 3 pambıqçılıq müəssisəsi tərəfindən 2526 hektarda pambıq əkilmişdir. Sahələrin suvarılmasında bəzi çətinliklər olsa da, hazırda bütün imkanlardan maksimum istifadə edilir. Yığıma sayılı günlər qalır.

Tütün sahələrində isə yığım gedir. Cari il Zeyvə, Şəfəq, Qarqucaq, Qaraçinar və Yenikənd kəndlərində ümumilikdə 8 hektar tütün əkilmişdir. Bu günə qədər 8 ton yaş tütün yarpağı yığılaraq qəbul məntəqəsinə təhvil verilmişdir. Bunlardan əlavə, cari ilin məhsulu üçün 573 hektarda qarğıdalı, 14,5 hektarda darı, 4,5 hektar lobya, 44 hektar soya, 52,9 hektar şəkər çuğunduru, 2348,6 hektar günəbaxan, 265,4 hektar kartof, 1080,7 hektar tərəvəz, 76,5 hektar bostan bitkiləri, 14896,5 hektar yonca əkilmişdir.

Cari ilin ötən dövrü ərzində rayon heyvandarları da bir sıra uğurlara imza atmışlar. Belə ki, yarım il ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində diri çəkidə 2095,2 ton ət, 22018,1 ton süd, 14,5 milyon ədəd yumurta, 280,6 ton yun təhvil verilmişdir.

Əkin sahələrinin suvarılması üçün, əsasən, rayon Suvarma Sistemləri İdarəsinin balansındakı 958 subartezian quyusundan, 4 (Borsunlu, Səfikürd, Boluslu, Qızılhacılı) nasos stansiyasından, Şəmkir maşın kanalından, sol sahil Tərtər kanalından, təbii su mənbələri olan Kürəkçay, Qara-Goran çaylarından istifadə edilir. Cari il yağan leysan yağışları hesabına çaylarda yaranan sel sularının təsərrüfatlara yönləndirilməsi və Səfikürd su anbarına suyun yığılması nəticəsində Səfikürd, Abbasqulular, Qızılhacılı və Balakürd ərazilərində yazlıq əkinlər, o cümlədən pambıq və yonca sahələri lazımi qədər suvarılmışdır.

Rayon əhalisini içməli su ilə təmin etmək üçün isə Səfikürd kəndində 1000 kubmetrlik 3, Qazanbulaq qəsəbəsində 1000 kubmetrlik 1, Veyisli kəndində məcburi köçkünlər üçün salınmış Yeni qəsəbədə 1000 və 500 kubmetrlik 4, 12-ci məhəllədə 500 kubmetrlik 2, Tapqaraqoyunlu kəndində 300 kubmetrlik 2 su anbarına lazımi xidmət göstərilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində Goranboy rayonunda və Murovdağ-Goranboy su kəmərinin ətrafında olan yaxın kəndlərdə yaşayan əhaliyə 24 saat fasiləsiz su verilməsi təmin edilmişdir.

İnvestorların rayona cəlb edilməsində də müsbət irəliləyişə nail olunmuşdur. Hazırda rayon mərkəzində inşa edilən Medlife Hospitalın tikintisinə 5 milyon manat investisiya qoyulmuşdur. İlin sonuna kimi istifadəyə veriləcək hospitalda 232 nəfər daimi işlə təmin olunacaq. Bundan başqa, Muzdurlar kəndində fəaliyyət göstərən Umud Aqro və AK Petrol müəssisələrinin fəaliyyətinin genişləndirilməsi məqsədilə əlavə 1 milyon manat investisiya qoyulmuş, daimi iş yerlərinin sayı 50-yə çatdırılmışdır. Ümumilikdə 6 ay ərzində rayon üzrə 61 daimi iş yeri açılmışdır. Mövsümi iş yerlərinin sayı isə 3000-dən çox olmuşdur.

Goranboyda yeni məktəb tikintisi də səngimir. Artıq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığı və Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana Yeni Məktəb" layihəsi çərçivəsində 700 şagirdlik Goranboy şəhər 1 nömrəli tam orta məktəbin tikintisi yekunlaşmışdır. Hazırda isə Dəliməmmədli şəhər tam orta məktəbində aparılan tikinti, eyni zamanda rayonun Qaraçinar və Tap kənd tam orta məktəblərində aparılan əsaslı təmir işlərinin yeni dərs ilinəcən başa çatdırılması üçün əlavə tədbirlər görülür.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Bərdədə pambıqçılıqla bağlı təlim keçirilib

Bərdə rayonunda "Pambıqda boy tənzimləyici hormonların tətbiqi, həmçinin məhsulun yığıma hazırlanması üçün defolyasiya və desikasiya aparılma qaydaları" mövzusunda fermerlər üçün təlim keçirilib.

Rayonun Yenidaşkənd kəndində fermer Ədalət Əliyevə məxsus pambıq tarlasında keçirilən təlimdə Aqrar Xidmətlər Agentliyinin Bərdə Regional Təlim Mərkəzinin əməkdaşları, fermerlər və aqrar mütəxəssislər iştirak ediblər.

Təlimçilər qeyd ediblər ki, pambıq bitkisində 3-4 formalaşmış qoza, 15-17 simpodial budaq olduqda ucvurma aparılmalıdır. Bildirilib ki, ucvurma və yaxud boy tənzimləyici hormonların tətbiqi kolun formalaşmasına, bar orqanlarının toplanmasına və əmələ gəlməsinə təsir edən ən əsas tədbirlərdən biri sayılır. Ucvurma pambıq kollarına xüsusi forma verməklə, məhsulun maşınla yığılmasını asanlaşdırır.

Mütəxəssislər əlavə ediblər ki, məhsulu itkisiz və qısa zamanda yığmaq üçün pambıq əkinləri defolyasiya və desikasiya edilməlidir. Yığım qabağı qozaların kütləvi açılmasını təmin etmək və yarpaqların yaşıl rəngdə tökülməsi üçün defolyasiya olunur. Defolyasiyanın səmərəliliyi işlənəcək preparatın təsir dərəcəsindən, bitkinin vəziyyətindən, aqrotexniki zəmindən, ətraf temperaturdan, torpaq və havanın nəmliyindən, torpağın münbitliyindən, qidalanma rejimindən və digər amillərdən asılıdır. Desikasiya prosesi isə bitkinin gövdə və yarpaqlarının birlikdə tam qurudulmasıdır.

## Qəbələli məzunlar nümunə göstəriblər

Bu il tam orta məktəbi bitirən 1140 nəfər qəbələli məzundan 42-si ali məktəblərə qəbul imtahanlarında 600 baldan yuxarı nəticə göstərib.

Bu barədə AZƏRTAC-a Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Qəbələ rayon Təhsil sektorundan məlumat verilib. Bildirilib ki, qəbul imtahanlarında Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin məzunu Fidan Qismətli rayonun, eləcə də regionun təhsil müəssisələri arasında ən yüksək nəticə göstərib. Belə ki, o, birinci ixtisas qrupu üzrə imtahanlarda 690,6 bal toplayıb. İmtahanlarda Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin məzunu Natiq Məmmədov 689,2, Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin məzunu Tural Nurəddinli 677, Aydınqışlaq kənd tam orta məktəbin məzunu İlkin Əhmədov 675,3 bal, şəhər 1 nömrəli tam orta məktəbin məzunu Sevda Muxtarova 673, Həmzəli kənd tam orta məktəbin məzunu Şəhriyar Yusibov isə 670 bal toplamağa müvəffəq olublar.

# V İslam Həmrəyliyi Oyunları



# Vətən müharibəsi veteranı islamiadanın qalibi oldu



Əvvəli 1-ci səh.

Konyadan verilən xəbərə görə, bunu Türkiyədə keçirilmiş V İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanan Azərbaycan kikboksçusu Fərid Ağamoğlanov deyib. Kikboksinqin "full kontakt" növündə 63,5 kq çəki dərəcəsində çempion olan idmançı qələbəsini Vətən müharibəsi şəhidlərinə həsr etdiyini bildirib: "Özüm II Qarabağ müharibəsi veteranıyam. Qalib ölkənin idmançısı olaraq burada qalib olmağım məni daha da qürurlandırdı. Fəxr edirəm ki, azərbaycanlıyam. Bundan sonra da çalışacağam ki, Azərbaycanın bayrağını daha mötəbər yarışlarda zirvələrə qaldırım".

Finalda Mərakeş idmançısı İşu Kalfaui Ussamanı məğlub edən Fərid qabırğasından zədə aldığını vurğulayıb: "Yarımfinal döyüşüm ağır keçdi. Dünya ikincisi ilə vuruşdum. Qabırğamdan zədə aldım. Buna baxmayaraq, mən bura çempion olmağa gəlmişdim. O çempionluq hissi ilə mən rinqə çıxdım, ağrıya baxmayaraq, qalib gəldim. Amma qələbə ağrını yaddan çıxardır. Yaşasın Azərbaycan!"

Qeyd edək ki, dünən başa çatan islamiadanı Azərbaycan kikboksinq millisi 15 medalla (3 qızıl, 5 bürünc və 7 bürünc) başa vurub.

# Azərbaycan karateçiləri son gündə 3 medala layiq görülüblər



V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi karate (kumite) üzrə təmsil edən İrina Zaretskaya ardıcıl ikinci dəfə bu turnirin qalibi olub. 68 kq çəki dərəcəsində çıxış edən Ukrayna əsilli idmançı 2017-ci ildə Bakıda olduğu kimi, bu dəfə də finalda qalib gələrək qızıl medala layiq görülüb.

Pənah Abdullayev (84 kq) finalda uduzub və gümüş medalla kifayətlənib. İsmayıl Quliyev, Tural Balcanlı və Rövşən Əliyevdən ibarət kata komandası isə "bürünc" uğrunda mübarizədən məğlub ayrılaraq medalsız qalıb.

Konyadan aldığımız son məlumata görə, 84+ kq çəki dərəcəsində çıxış edən idmançımız Asiman Qurbanlı finalda uduzaraq 2-ci yeri tutub.

Bununla da Azərbaycan karateçiləri yarışı 6 mükafatla başa vurublar. İrina Zaretska (64 kq) qızıl, Pənah Abdullayev (84 kq) və Asiman Qurbanlı (84+ kq) gümüş, Mədinə Sadıqova (55 kq), Roman Heydərov (kata) və Tural Ağalarzadə (67 kq) isə bürünc medala sahib çıxıblar.

# Kikboksçularımız islamiadanı 15 medalla tamamlayıblar

**Türkiyənin Konya şəhərində yekunlaşan V İslam Həmrəyliyi Oyunlarında kikboksinq yarışları başa çatıb.**



**Azərbaycan Kikboksinq Federasiyasının Mətbuat xidmətindən verilən məlumata görə, dünən Elvin Ağayev (full contact, 86 kq) finalda meydan sahibi, Türkiyə idmançısı Əmrah Yaşara uduzaraq gümüş medalla kifayətlənib. Beləliklə, yarışlara 24 idmançı ilə qatılan Azərbaycan islamiadanın kikboksinq turnirini 15 medalla tamamlayıb. Bunlardan 3-ü qızıl, 5-i gümüş və 7-si bürünc medaldır.**

**Vətənə medalla qayıdan kikboksçular bunlardır: Bəhram Rəcəbzadə (low kick, +91 kq), Fərid Ağamoğlanov (full contact, 63,5 kq), Anar Məmmədov (low kick, 57 kq) - qızıl, Rəhim Əliyev (low kick, 71 kq), Camal Məmmədov (full contact, 54 kq), Ramal Aslanov (low kick, 75 kq), Saqi Salehli (full contact, 75 kq), Elvin Ağayev (full contact, 86 kq) - gümüş, Amil Məmmədov (full contact, 51 kq), Ramiz Məmmədov (full contact, 60 kq), Elxan Əliyev (full contact, 71 kq), Arzuman Qədimov (low kick, 63,5 kq), Qəşəm Məmmədov (low kick, 67 kq), Bəybala Quliyev (low kick, 86 kq), Aysu Devrişova (56 kq) - bürünc.**

**Qeyd edək ki, Azərbaycan kikboksinq millisinin bu il növbəti mötəbər yarışı da qardaş ölkə Türkiyədə olacaq. Belə ki, Azərbaycan yığmasını 11-20 noyabr tarixlərində Antalyada keçiriləcək Avropa çempionatı gözləyir.**

# Kişi basketbolçularımız gümüş medal qazanıblar




Kişilərdən ibarət 3x3 basketbol növü üzrə yığma komandamız V İslam Həmrəyliyi Oyunlarında ikinci yeri tutub. Konyadan aldığımız məlumata görə, həlledici qarşılaşmada millimiz Seneqal komandası ilə üz-üzə gəlib.

Amil Həmzəyev, Zaur Paşayev, Orxan Aydın və Endar Poladxanlıdan ibarət yığmamız gərgin keçən oyunun yekununda 16:21 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənib.

# Uğur ALTAY: "Yarışlara hazırlaşarkən Bakının uğurlu təcrübəsindən yararlandıq"




Dünən Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunları başa çatıb. Bu yarışların müsəlman dünyası üçün əhəmiyyəti böyükdür və islamiadaya marağın yüksək olması bizi sevindirir. Oyunlarda 56 ölkədən 4 mindən artıq idmançı birincilik uğrunda mübarizə aparıb.

Bu sözləri deyən V İslam Həmrəyliyi Oyunlarına həsr olunan mətbuat konfransında Konya Böyükşəhər Bələdiyyəsinin rəhbəri Uğur İbrahim Altay 2017-ci ildə Bakıda təşkil olunmuş IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminin möhtəşəm olduğunu bildirib: "Yarışa hazırlaşarkən Bakının uğurlu təcrübəsindən yararlandıq. Çalışdıq ki, biz də yarışları və açılış mərasimini əvvəlki kimi yüksək səviyyədə təşkil edək. Ümid edirəm ki, buna nail olmağı bacardıq".

Konyanın 2022-ci il üçün İslam ölkələrinin idman paytaxtı seçildiyini xatırladan natiq şəhərin tarixi, mədəniyyəti və turizm potensialı barədə məlumat verib. O, qeyd edib ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Konyanı 2023-cü ildə dünyanın idman paytaxtı elan edib. Bu, bizi sevindirir və qarşımıza yeni hədəflər qoyur. Konya bu nüfuzlu adı alan ilk Türkiyə şəhəridir. Eləcə də Konya bu adı alan Madriddən sonra ikinci Avropa şəhəridir.




# Azərbaycan V İslam Həmrəyliyi Oyunlarını 99 medalla başa vurub

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunları başa çatıb.

Azərbaycan yarışı 99 medalla bitirib və 56 ölkə arasında 4-cü pillədəki mövqeyini qoruyub. Medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürüncdür. İlk 3 sırada isə müvafiq olaraq Türkiyə - 320 (132-102-86), Özbəkistan - 144 (49-39-56) və İran - 132 (39-44-49) qərarlaşıb.

Ümumilikdə 56 ölkədən 44-ü medal qazana bilib.

Qeyd edək ki, Azərbaycan yığması medallarını 19 növdə - güləş (8 qızıl, 8 gümüş, 7 bürünc), bədii gimnastika (5 qızıl, 2 gümüş, 1 bürünc), cüdo (2 qızıl, 3 gümüş, 2 bürünc), aerobika (2 qızıl, 3 gümüş), qılıncoynatma (2 qızıl, 2 gümüş, 2 bürünc), taekvondo (1 qızıl, 2 gümüş, 2 bürünc), idman gimnastikası (1 qızıl, 2 gümüş, 1 bürünc), atletika (1 qızıl, 2 gümüş), kikboksinq (3 qızıl, 5 gümüş, 7 bürünc), üzgüçülük (1 qızıl, 1 gümüş, 1 bürünc), 3X3 basketbol (1 qızıl, 1 gümüş), stend atıcılığı (1 qızıl, 1 gümüş), ağırlıqqaldırma (1 gümüş, 3 bürünc), həndbol (1 gümüş), karate (1 qızıl, 2 gümüş, 3 bürünc), para-oxatma (2 bürünc), para-stolüstü tennis (1 bürünc), voleybol (1 bürünc) və futbolda (1 bürünc) əldə edib.





# V İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi keçirilib

Dünən Türkiyənin Konya şəhərindəki 15 İyul Stadionunda V İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi keçirilib.

Tədbirdə Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu və İslam Həmrəyliyi İdman Federasiyasının (ISSF) prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud iştirak ediblər.

Əvvəlcə Konyanın tarixi, mədəniyyəti və turizm potensialından bəhs edən videoçarx nümayiş etdirilib.

Sonra Türkiyənin Dövlət Bayrağı qaldırılıb və Dövlət Himni - "İstiqlal Marşı" səsləndirilib.

Daha sonra oyunlarda iştirak edən 56 ölkənin bayrağı səhnəyə gətirilib.

Yarışların iştirakçıları, o cümlədən Azərbaycan idmançıları stadiona daxil olaraq paradda iştirak ediblər. Bağlanışda Azərbaycan nümayəndə heyətinin bayraqdarı İslam Həmrəyliyi Oyunlarının üçqat mükafatçısı - basketbol 3x3 milli komandasının üzvü Zaur Paşayev olub.

Daha sonra oyunların könüllüləri səhnəyə dəvət edilərək, onlara təşəkkür ifadə olunub.

Türkiyənin gənclər və idman naziri, "Konya-2021"in Hazırlıq və Təşkilat Komitəsinin sədri Mehmet Kasapoğlu çıxış edərək bildirib ki, bu oyunlarda uduzan olmayıb, qazanan isə birlik-bərabərlik, dostluq-qardaşlıq olub.

Yarışın unudulmaz anlarla yadda qaldığını söyləyən İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud idmançıları dəstəkləyən hər kəsə, eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib. O, dünyaya "Həmrəylik adımız, sülh dilimiz, idman meydanlarında şərəfli rəqabət isə yolumuzdur" mesajını verən idmançılara minnətdarlığını bildirib.

Sonra V İslam Həmrəyliyi Oyunlarından bəhs edən videoçarx nümayiş etdirilib. Bağlanış mərasimi atəşfəşanlıq və müğənni Kubatın konserti ilə bitib.

Mərasimə Azərbaycandan rəsmi şəxslər qismində Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ilə Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Elnur Məmmədov qatılıblar.

*Hazırladı:*
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***








Dünyada 11 iqlim qurşağından doqquzunun Azərbaycanda olması istər səyahətçilərin, istərsə də müalicə məqsədilə ölkəmizə gələn əcnəbilərin diqqətini çəkibdir.

# Qədim tarixi yaşadan yeni turizm marşrutları

Azərbaycanın tarixi mədəniyyət abidələri də səyahətçilərin hər zaman maraq göstərdiyi ünvanlardır. Bunların sırasında Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mərkəz, sahil bağındakı Hərbi Qənimətlər Parkı, Bayraq Meydanı, İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, qəhrəman şəhidlərin uyuduğu Dağüstü park, tarixin minilliklərindən söhbət açan yerli memarlıq abidəsi hesab edilən mülklər, Qobustan qayaları, Beşbarmaq dağı, Şəki xan sarayı, Nuhun qəbri, Qubanın Xınalıq kəndi, Talış dağları və digərlərinin adını qürurla çəkə bilərik. Məmnunluq doğuran odur ki, Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən, yeni turizm məkanlarının da sayı ildən-ilə artmaqdadır. Cari ildən bu sırada Qobustan rayonundakı "Diri Baba" türbəsini, saf təbiəti və habelə tarix-memarlıq abidələri ilə diqqətçəkən İsmayıllı rayonundakı qədim Basqal qəsəbəsini görmək qürurvericidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də İsmayıllıya səfərləri zamanı dünya standartlarına uyğun tikilən "Basqal Resort & Spa" otelinin açılışında iştirak ediblər.

Xatırladaq ki, dağlıq ərazidə yerləşən və səfalı meşələrlə əhatə olunan bu otel 179 otaq və lüks nömrələrdən, üçotaqlı 4 kottecdən və isidilən açıq hovuzlu 1 kottecdən ibarətdir. "KIDS CLUB" hər yaşda əyləncə axtaran uşaqlar üçün qapalı məkanda və açıq havada oyun meydançaları olan ideal yerdir. Burada peşəkar animasiya komandası gün ərzində uşaqların asudə vaxtının səmərəli və əyləncəli keçirilməsini təmin edəcək. "Basqal Resort & Spa"nın 120 nəfərlik "Hələbi" və "Heyrati" konfrans zallarında konfrans, seminar və digər tədbirlər keçirmək üçün hər cür şərait yaradılıb. Həmçinin belə tədbirlərin açıq havada keçirilməsi üçün də burada geniş imkanlar yaradılıbdır. Gələn səyahətçilər rayondakı çoxsaylı gəzinti, yürüş və velosiped cığırlarından yararlana biləcəklər. Dövlət başçısının bu barədə mətbuata verdiyi müsahibəsində deyildiyi kimi, "Bu otelin açılışı, əlbəttə ki, bölgənin turizm potensialını böyük dərəcədə genişləndirəcək. Eyni zamanda İsmayıllı rayonunda bu obyektlərin yaradılması yüzlərlə iş yerinin açılması deməkdir. Təkcə Basqaldakı oteldə 300-ə yaxın iş yeri açılır və orada işləyənlər də yerli vətəndaşlardır". Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yerli və əcnəbi turistlərin böyük maraq göstərdikləri rayonun Basqal qəsəbəsində və "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğunda da olublar.

Adı tarixin dərin qatlarından gələn Basqal qəsəbəsi 240 hektarlıq ərazidə yerləşir. Bu ərazinin 50 hektarı 1989-cu ildə yaradılan "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğuna aiddir. Qəsəbədə təxminən 1480 nəfər, onlardan təxminən 600 nəfəri qoruq ərazisində yaşayır. Dövlət başçısı və birinci xanım qoruq ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olublar.

Tapşırığa əsasən, Dövlət Turizm Agentliyi tərəfindən tarixən Basqalın mərkəzi hesab olunan Orta əsrlər yol mədəniyyətinə xas olan pilləkənvari və daş döşəməli yolların, ənənəvi hasarlar və qədim taxta qapı-darvazaların qorunub saxlanıldığı 8 tarixi məhəllənin birləşdiyi Bazar meydanı abadlaşdırılıb.

Qoruğun mühüm tarixi abidələrindən biri hesab olunan Basqal hamamı maddi-mədəniyyət nümunələrimizin qorunması məqsədilə dövlət nəzarətinə götürülüb, Bazar meydanında Hamam Muzeyi əsaslı şəkildə bərpa edilib. Turistlər üçün maraq doğuran odur ki, muzeydə Azərbaycanda hamam mədəniyyətinin özəllikləri, inkişafı haqqında, eləcə də hamamla bağlı xalq adət və ənənələri, onun külxana adlanan döşəməaltı istilik sistemi haqqında maraqlı məlumatlarla tanış ola bilirlər.

Azərbaycan Prezidenti İlham Əliyev bu barədə demişdir: "Basqal qəsəbəsinin inkişafı, Basqalın tarixi irsinin qorunması ilə bağlı bir neçə il bundan əvvəl mənim tərəfimdən xüsusi sərəncam verilmişdir. Bu sərəncam əsasında Dövlət Turizm Agentliyi burada artıq bir müddətdir ki, işlər aparır. İşlərin təxminən 50 faizi başa çatıb və bu gün hər kəs bunu görə bilər. Basqal bizim qədim kəndlərimizdən biridir, özünəməxsus tarixə malik olan bir yerdir. Əlbəttə, mən çox istərdim ki, həm bu yerin tarixi siması qorunsun, eyni zamanda burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılsın - bunu da biz təmin etdik, - iş yerlərinin yaradılması üçün yeni imkanlar açılsın. Əminəm ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq. Yəni həm Azərbaycan vətəndaşları, həm ölkəmizdə olan qonaqlar, bildiyiniz kimi, indi Lahıca durmadan səfərlər edirlər. Əminəm ki, eyni aqibət Basqal qəsəbəsi üçün də olacaq. Bu məqsədlə bu tarixi yaşayış yerinin konservasiyası, bunun tarixi simasının qorunması xüsusi əhəmiyyət daşıyır".

Görünən odur ki, qədim tarixi və müasirliyi ilə gözoxşayan Basqal dünya turizm həvəskarlarına gəl-gəl deyir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Ermənistan Azərbaycan vətəndaşı olmaq istəyənləri ittiham edir

## Rəsmi İrəvanın bu addımı məğlub ölkənin sülh danışıqlarından yayındığını bir daha təsdiqləyir

Ermənistan hər yolla 10 noyabr Bəyanatının şərtlərini pozmağa, öhdəliklərdən yayınmağa çalışır. Azərbaycan sülh sazişinin bağlanması ilə əlaqədar təkliflər irəli sürdüyü vaxtdan bəri qarşı tərəf müxtəlif bəhanələr uydurmağa davam edir.

Görünən odur ki, ermənilər bu istiqamətdə səy göstərməyə çalışmırlar. Əksinə, sülh müqaviləsinin bağlanmasını gecikdirməyə, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan torpaqlarındakı erməni silahlı dəstələri vasitəsilə təxribatlar törətməyə davam edirlər. Bu isə, əslində, Ermənistanı daha da ağır vəziyyətə salır. Çünki törətdikləri hər bir təxribatın cavabını artıqlaması ilə alırlar.

Bunlar azmış kimi, artıq həqiqətləri dərk edib Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən erməniləri də təqib etməyə başlayıblar. Belə ki, videomüraciət yayaraq Azərbaycandan vətəndaşlıq istəyən ermənilərə qarşı cinayət işi açılır. Onlar dövlətə xəyanət və casusluqda ittiham olunurlar. Həmin şəxslərə qarşı cinayət işinin açılması bir daha göstərir ki, Ermənistan insan hüquqlarını pozur, digər tərəfdən isə Azərbaycanla sülh müqaviləsi bağlamaq istəmir və bunu hər əməlində sübut edir.

Bununla bağlı Azərbaycanda fəaliyyət göstərən insan hüquqları müdafiəsi ilə məşğul olan QHT-lər beynəlxalq hüquq-müdafiə təşkilatlarına müraciət ediblər. QHT-lər böyük narahatlıq hissi ilə bildiriblər ki, rəsmi İrəvan Qarabağda yaşayan əhali arasında Azərbaycanla və azərbaycanlılarla sülh şəraitində yaşamağın zəruriliyini bəyan edən vətəndaşları "təxribatçı fəaliyyətlər" zəminində günahlandırır. Azərbaycan vətəndaşlığı almaq üçün Prezident İlham Əliyevə müraciət etdiklərinə görə ermənilərin təqib olunması ilk növbədə insan hüquqlarının pozulmasıdır.

Bu addımlarla Ermənistan rəhbərliyi Azərbaycan vətəndaşı kimi qanuni əsaslarla Xankəndidə, eləcə də qonşu şəhər və kəndlərdə yaşamaq istəyən Ermənistan vətəndaşlarını qorxutmaq niyyəti güdür.

Hüquq-müdafiə təşkilatlarının müraciətində Azərbaycanın regionda sülh və barış cəhdlərini əngəlləməyə çalışan Ermənistan rəhbərliyinə qarşı müvafiq tədbirlər görülməsi tələb edilib.

Milli Məclisin İnsan hüquqları komitəsinin deputatı Tahir Kərimli qəzetimizə açıqlamasında deyib ki, beynəlxalq hüquqda vətəndaşlığın qəbul olunması və vətəndaşlıqdan çıxmaq sərbəstdir. Bununla bağlı hər hansı cinayət təqibi nəzərdə tutulmur. Ermənistanın bu addımı onun Azərbaycana düşmən münasibətini davam etdirdiyini göstərir. Məğlub ölkə bu vəziyyətlə heç cür barışa bilmir. Hüquqi cəhətdən Ermənistanın belə bir ixtiyarı yoxdur, çünki orada hansısa fövqəladə vəziyyət elan olunmayıb ki həmin anda vətəndaşlıqdan çıxmaq qadağan edilsin.

Tahir Kərimli bildirir ki, ermənilərin çoxu başqa ölkələrin vətəndaşlığını qəbul edirlər. Bu da onu göstərir ki, ermənilər orada yaşamaq istəmirlər: "Hesab edirəm ki, Ermənistanın bu istiqamətdə atdığı addımlar birmənalı şəkildə Azərbaycanla sülh sazişindən qaçdığını, imtina etdiyini göstərir. Təsadüfi deyil ki, Azərbaycanın qeyri-hökumət təşkilatları beynəlxalq qurumlara müraciət ediblər".

Deputat hesab edir ki, beynəlxalq qurumlar buna reaksiya verməlidir, çünki bu, həm də ciddi qanun pozuntusudur. Beynəlxalq təşkilatlar bəzən Azərbaycanı ittiham edirlər, amma indiyə kimi Azərbaycanda belə bir hal baş verməmişdir. Bu, Azərbaycanın demokratik dəyərlərə üstünlük verdiyini göstərən hallardan biridir. Bu məsələdə QHT-lər daha fəal olmalı, təkidlə beynəlxalq təşkilatlardan tələb etməlidirlər ki, onların müraciətlərinə baxılsın. Ermənilər Azərbaycan vətəndaşlığını qəbul etmək istəyirlər, bu, onların hüquqlarıdır. Bu, ölkəmizin də maraqları çərçivəsindədir. Azərbaycan tərəfinin müraciəti hüquqi cəhətdən əsaslıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Bakıda hava nəqliyyatında təhlükəsizlik məsələləri müzakirə olunub



"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Aeroportunda Aviasiya Təhlükəsizliyi üzrə İdarələrarası Komissiyanın növbəti iclası keçirilmişdir.

İclasda "Azərbaycan Hava Yolları" QSC-nin, Azərbaycan Dövlət Mülki Aviasiya Agentliyinin, hava nəqliyyatında güc strukturlarının və aviasiya subyektlərinin rəhbər heyəti iştirak etmişdir.

İclasda iştirakçılar mülki aviasiyanın hal-hazırda bütün dünyada üzləşdiyi çağırışları, Heydər Əliyev Beynəlxalq Aeroportunun sərnişin və yük terminallarında aviasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra əsas məsələləri müzakirə etmiş, gələcəkdə aviasiya təhlükəsizliyinin inkişafının əsas prioritetləri müəyyən edilmişdir.

Görüşdə aviasiya təhlükəsizliyi mədəniyyətinin hərtərəfli tətbiqinin zəruriliyi və aviasiya təhlükəsizliyinin təmin edilməsinin "Azərbaycan Hava Yolları" üçün birinci dərəcəli prioritet kimi vacibliyi vurğulanmışdır. AZAL-ın bütün strukturları bundan sonra da digər idarələrlə əlaqəli şəkildə bu məsələyə böyük diqqət göstərəcəklər.


*Təkrar*

## "Azərişıq" ASC Kəlbəcər rayonu, Zod yaşayış məntəqəsində yerləşən vacib obyektlərin elektrik enerjisi ilə təmin olunması məqsədilə 35 kV-luq ÖİN xətlərinin çəkilməsi və KTM-in quraşdırılması işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Kəlbəcər rayonu, Zod yaşayış məntəqəsində yerləşən vacib obyektlərin elektrik enerjisi ilə təmin olunması məqsədilə 35 kV-luq ÖİN xətlərinin çəkilməsi və KTM-in quraşdırılması işlərinin satın alınması.

İştirak haqqı - 500 manat

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bankın" Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namik Heybətov (telefon: 440-39-93, daxili (92-19)) namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 sentyabr 2022-ci il saat 12:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 15 sentyabr 2022-ci il saat 12:00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 sentyabr 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün mebel inventarlarının satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz manat) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs- İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.07.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.07.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 12.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 20.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 21.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq İnformatika Olimpiadasında növbəti uğurumuz

## "Azercell"in dəstəyilə hazırlıq keçən şagirddən daha bir bürünc medal

Azərbaycanın məktəblilərdən ibarət informatika üzrə milli yığması İndoneziya Respublikasının Coqyakarta şəhərində keçirilən 34-cü Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2022) ölkəmizi layiqincə təmsil edib. 88 ölkədən 349-dan çox şagirdin qatıldığı olimpiadada Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin XI sinif şagirdi Səid Nəsibov bürünc medal əldə edib.



Qeyd edək ki, 2017-ci ildən etibarən məktəblilərimizin informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell"in Elm və Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandası ilə tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Hazırlıq prosesinə ölkənin hər yerindən istedadlı şagirdlər cəlb olunur, informatika fənni üzrə aparıcı mütəxəssislər tərəfindən uşaqlara təlimlər keçirilir, zəruri biliklər paylaşılır.

Azercell-in dəstəyi ilə Milli komandaların İnformatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlığı nəticəsində məktəblilərimiz müxtəlif miqyaslı olimpiada və müsabiqələrdə uğurla çıxış edərək 1 qızıl, 10 gümüş, 24 bürünc olmaqla, ümumilikdə 35 medal əldə ediblər.

"Azercell Telekom" MMC və Elm və Təhsil Nazirliyinin birgə əməkdaşlığı nəticəsində gənclər arasında İKT sahəsində təhsilə marağın və texnoloji savadlılığın artırılması istiqamətində həyata keçirilən sosial layihələr davam edir.

# "Azercell"dən abunəçilərə xəbərdarlıq

Nəzərinizə çatdırmaq istərdik ki, bəzi abunəçilərimiz son zamanlar "Azercell Telekom" MMC adından saxta yolla nömrə təklifi və satışı ilə bağlı dələduzluq halları ilə qarşılaşmalı olur.

Bundan əlavə, fırıldaqçıların şirkətimiz adından abunəçilər ilə əlaqə saxlaması, təklif olunan saxta nömrə ilə bağlı şəxsiyyət vəsiqəsi məlumatlarının ötürülməsi və ödənişin edilməsinə dair tələblərini irəli sürməsi hallarına da rast gəlinir. Müştərilərimizdən gələn müraciətlər əsasında "Azercell" şirkəti tərəfindən aparılmış yoxlamalar onu göstərir ki, saxta yolla göndərilən nömrənin abunəçi adına rəsmiləşdirilməsi ilə bağlı "Azercell" və ya şirkətin nömrə satışını həyata keçirən rəsmi dilerləri tərəfindən hər hansı bir əməliyyat aparılmayıb. Qeyd olunan xoşagəlməz halların "Azercell Telekom" ilə heç bir əlaqəsi olmadığını nəzərə alaraq zərərçəkmiş vətəndaşların hüquq-mühafizə orqanlarına müraciət etməsi tövsiyə edilir. Həmçinin abunəçilərə vaxtaşırı SMS bildirişlərin göndərilməsi, eləcə də "Azercell"in rəsmi saytı və sosial şəbəkə səhifələrində məlumatların yerləşdirilməsi yolu ilə şirkətimiz tərəfindən maarifləndirmə tədbirləri həyata keçirilir.

Yuxarıda sadalananları nəzərə alaraq, "Azercell" şirkəti abunəçilərini nömrə seçimi və sifarişi zamanı yarana biləcək saxtakarlıq və dələduzluq hallarının qarşısını almaq üçün əsas təhlükəsizlik tövsiyələrinə riayət etməyə çağırır:

- Tanımadığınız şəxslər tərəfindən saxta yolla nömrə təklifi etmək və ya məlumat almaq məqsədilə edilən zənglərə qarşı diqqətli olun;
- Naməlum şəxslərdən gələn zəng və ya SMS-lər əsasında ödənişlər etməyin;
- Etibar etmədiyiniz mənbələrlə şəxsiyyət vəsiqəsinin məlumatlarını paylaşmayın;
- Eləcə də şübhəli məzmunlu internet saytlardan istifadə etməyin və orada keçirilən müxtəlif oyun, yarışma və sairlərdən yararlanmayın;
- gələn SMS, vatsap mesajlarındakı şübhəli linklərə keçid etməyin;

Yeni nömrə əldə etmək məqsədilə yalnız "Azercell" şirkətinin rəsmi mənbələrindən istifadə edin:

- Rəsmi satış kanalı: **www.azercell.com** saytı;

"Azercell Eksklüziv" mağazaları, eləcə də rəsmi diler şəbəkəsinin ünvanları və əlaqə nömrələri: **https://www.azercell.com/az/personal/azercell-stores.html**;

Abunəçilər yuxarıdakı linkdən istifadə edərək "Azercell"in rəsmi dilerləri tərəfindən göndərilən nömrə təkliflərinin etibarlılığını yoxlamaq üçün nömrə siyahısını nəzərdən keçirə bilər.

- Yarana biləcək hər hansı sual ilə bağlı yalnız "Azercell" şirkətinin rəsmi əlaqə vasitələrindən birinə müraciət edin:
- Onlayn Müştəri Xidmətləri **https://www.azercell.com/az/**
- "Azercell"in rəsmi feysbuk, tviter və instaqram səhifələri;
- "Azercell" Telefon Mərkəzi:

**- Fakturalı Xətt Abunəçiləri: +994(012) 4905252 şəhər nömrəsi və ya 6565 qısa nömrəsinə;**

**- Fakturasız Xətt (SimSim) Abunəçiləri: +994(012) 4904949 şəhər nömrəsi və ya 2002 qısa nömrəsinə.**

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz manat) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.07.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.07.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 12.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 20.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 21.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**




# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün "Digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.07.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.07.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 09.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 19.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

22 iyun 2022-ci il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İsmayıllı rayonunun Zeyvə kəndi ərazisində, Muğanlı-İsmayıllı avtomobil yolunun 16-cı km-də "DOST evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin tikintisi işlərinin satın alınması məqsədilə keçirilən açıq tenderdə "Euroline" QSC qalib elan olunmuş və qaliblə 5499998.10 manat məbləğində satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Həftəsonunadək hava durğun və bürkülü olacaq

Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, həftənin sonunadək Bakıda və Abşeron yarımadasında hava şəraitini az qradiyentli, nisbətən alçaq təzyiq sahəsi təyin edəcək.




Xidmətdən AZƏRTAC-a bildirilib ki, bununla yanaşı, zəif cənub-şərq küləklərinin üstünlüyü havanın durğun və bürkülü keçməsinə səbəb olacaq.

Əsasən, axşam saatlarında havada rütubətin daha yüksək olacağı gözlənilir. Havanın maksimal temperaturu 35-38° isti olduğu halda, sinoptik şəraitlə əlaqədar 40-41° isti kimi hiss olunacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Neft kimyası və kimya mühəndisliyi kafedrasının dosenti, universitetin Ağsaqqallar Şurasının sədri

**TELMAN QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6346**
**Sifariş 2280**
**Qiyməti 40 qəpik**